## QMİ elan etdi

Bu il Azərbaycandan Həcc ziyarəti olacaq



**Bu il Azərbaycandan Həcc ziyarəti olacaq.**

Bunu APA-ya açıqlamasında Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Xarici əlaqələr şöbəsinin müdiri Vüsal Cahangiri bildirib.

Onun sözlərinə görə, yaxın günlərdə Səudiyyə Ərəbistanının Həcc və Ümrə Nazirliyi ilə müqavilələrin imzalanması gözlənilir:

"Həcc ziyarətinin koronavirusla bağlı ötən ilki şərtləri bir az yumşaldılacaq. Bildiyiniz kimi, ötən il ziyarətə 65 yaşına qədər olan şəxslər gedə bilərdi. Çox ehtimal ki, bu il ziyarət üçün yaş məhdudiyyəti də olmayacaq. Amma yəqin ki, koronavirusa qarşı iki doza vaksin tələbi qalacaq".

## Metrodan istifadə edənlərin sayı kəskin artıb



**2022-ci ilin yanvar-noyabr aylarında Bakıda metrodan istifadə edənlərin sayı kəskin artıb.**

Bu barədə Dövlət Statistika Komitəsindən məlumat verilib.

Qeyd olunan müddət ərzində metro nəqliyyatının xidmətlərindən istifadə etmiş sərnişinlərin sayı 2,6 dəfə artaraq 187,4 milyon nəfər olub.

Ümumi sərnişinlərin 2,8 faizi metrodan istifadə edib. Ümumilikdə 2022-ci ilin yanvar-noyabr aylarında nəqliyyatçılar 1 milyard 466,2 milyon sərnişinə xidmət göstəriblər.



# Bakıya qar yağacaq

Temperatur 10-12 dərəcə enəcək

**Bakıda və Abşeron yarımadasında bir neçə gün davam edən mülayim, isti hava şəraitindən sonra yanvarın 8-dən başlayaraq havanın dəyişəcəyi, arabir yağıntılı olacağı, bəzi yerlərdə sulu qar, qar yağacağı gözlənilir.**

Bunu Hidrometeoroloji Proqnozlar Bürosunun direktoru Gülşad Məmmədova bildirib.

O qeyd edib ki, şimal-şərq küləyi ayın 7-si axşamdan 8-i gündüzədək yarımadanın bəzi yerlərində arabir güclənəcək. Havanın temperaturu ötən günlərlə müqayisədə 10-12 dərəcə enərək, yanvarın 10-11-də gecə 2 dərəcəyədək şaxta, gündüz 0 dərəcəyə yaxın olacaq: "Azərbaycanın şimal və qərb rayonlarından başlayaraq yanvarın 7-si axşamdan ayın 12-dək ölkə ərazisində havanın dəyişəcəyi, arabir yağıntılı olacağı, bəzi yerlərdə sulu qar, qar yağacağı, ayrı-ayrı yerlərdə intensivləşəcəyi gözlənilir".

G.Məmmədova qeyd edib ki, qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu ötən günlərlə müqayisədə 10-12 dərəcə enərək, gecə 0-5 dərəcə şaxta, gündüz 4 dərəcəyədək isti, dağlıq rayonlarda isə gecə 10-15, gündüz 5-8 dərəcə şaxta olacaq. Gözlənilən yağıntılı və şaxtalı hava şəraiti ilə əlaqədar yolların buz bağlama ehtimalı var.


❒ № 1 (5762), 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 6 yanvar 2022-ci il (cümə)




## Minimum aylıq əməkhaqqının məbləği 345 manat müəyyən edilib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 5-də "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb.**

Sərəncama əsasən, Azərbaycanda minimum aylıq əməkhaqqının məbləği 2023-cü il yanvarın 1-dən 345 manat müəyyən edilib.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinə 10 gün müddətində əmək pensiyasının minimum məbləğinin 280 manata çatdırılması, sosial müavinətlərin və təqaüdlərin məbləğlərinin artırılması ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək tapşırılıb.

Nazirlər Kabineti, həmçinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktları ilə müəyyən olunmuş dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşlarının məbləğlərinin bir ay müddətində bu Sərəncamın 1-ci hissəsinə uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat verməli, bu Sərəncamdan irəli gələn digər məsələləri həll etməlidir.

## Putin Ukraynanın bütün təmas xətti boyunca atəşkəs elan edib

Rusiya Prezidenti Patriarx Kirillin müraciətini nəzərə alıb



**Rusiya Prezidenti Vladimir Putin müdafiə naziri Sergey Şoyquya 6 yanvar saat 12:00-dan 7 yanvar 24:00-dək Ukraynanın bütün təmas xətti boyunca atəşkəs rejiminin tətbiq edilməsini tapşırıb.**

Bu barədə Kremlin mətbuat xidmətindən bildirilib.

"Patriarx Kirill həzrətlərinin müraciətini nəzərə alaraq, Rusiya Federasiyasının Müdafiə nazirinə 6 yanvar 2023-cü il saat 12:00-dan 7 yanvar 2023-cü il saat 24:00-dək Ukraynada qoşunların təmas xətti boyunca atəşkəs rejimini tətbiq etməyi tapşırıram.

(səh.2)

# Biz hazırıq...

Müharibə başlasa Ermənistanın aqibəti bu dəfə daha ağır olacaq



Beynəlxalq Böhran Qrupunun proqnozlarının erməni saytları tərəfindən də geniş yayılması bunun əyani sübutudur

**Beynəlxalq Böhran Qrupu Ermənistanla Azərbaycan arasında yeni münaqişə ola biləcəyini iddia edib.**

Təşkilatın ekspertləri qarşıda gözlənilən risklərlə bağlı məqalə yayıblar. Analitik məqalədə iddia edilib ki, sanki Ermənistan və Azərbaycan yeni qarşıdurmaya doğru irəliləyir. Onların rəyinə görə, Rusiyanın Ukraynadakı uğursuzluqları regiondakı hesablamaları alt-üst edib:

"Yeni müharibə daha qısa, lakin 2020-ci ildəki altı həftəlik münaqişədən az dramatik olmayacaq. O vaxtdan balans daha da Azərbaycanın xeyrinə dəyişdi. Ənənəvi silah alverçisi olan Rusiyanın təchizat çatışmazlığı səbəbindən Ermənistan ordusu qoşunlarını və silah-sursatını artırmayıb.

(səh.3)

# Bu nə xəstəlikdirsə, çıxıb getmək bilmir

Vəziyyət koronavirusa "şükür" dedirdəcək həddə çatıb



**Xəstələnənlərin sayının getdikcə artması əhali arasında müxtəlif şayiələr yaradıb.**

Hazırkı xəstəliyi koronavirusun yeni dalğası, "donuz qripi" ilə koronavirusun qarışığı, hətta "elmə hələ məlum olmayan virus" da adlandırırlar. Səbəb isə sadədir. Birincisi, ölkədə hazırda tüğyan edən qripəoxşar xəstəlik barədə rəsmi orqanların dəqiq açıqlama verməməsi, xəstəliyin konkret adlandırılmamasıdır.

(səh.7)



## Bu il qiymət artımı qaçılmaz olacaq

Artıq yeni ildən marketlərdə şampun, sabun, dezodorant, ət bahalaşıb

**Yeni ilin ilk günlərində ərzaq məhsullarının qiymətində müəyyən dəyişmələr nəzərə çarpır.**

Əsas ərzaq məhsulları hesab edilən unun qiyməti aşağı düşüb, dana ətinin qiymətində isə bahalaşma olduğu deyilir. Bəzi məlumatlara görə, ətin qiyməti 20 manata qalxıb.

Satıcılarsa bu xəbəri təkzib edir. Ətin qiymətinin (sümüklü, sümüksüz) 2022-ci ildə olduğu kimi yenə də 13-16 manat arası dəyişdiyini bildirirlər. İlin sonu verilən iqtisadi proqnozlar diqqətə alınarsa, qiymət artımının labüdlüyü nəzərdən qaçmamalıdır.

(səh.4)

## 1 nəfər vəfat edib

66 yeni yoluxma faktı qeydə alınıb



**Son sutkada Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 66 yeni yoluxma faktı qeydə alınıb, 83 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nəticələri müsbət çıxan 1 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 826 562 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 816 232 nəfər müalicə olunaraq sağalıb, hazırda 321 aktiv xəstə var. Bu günə qədər 10 009 nəfər vəfat edib.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 1 846, bu günə qədər isə ümumilikdə 7 436 506 test icra olunub.*

## İranda son 110 gündə 73 jurnalist və fotoqraf həbs edilib



**İranda həbs olunan jurnalist və fotoqrafların sayı açıqlanıb.**

APA-nın Tehran bürosu xəbər verir ki, İranda son 110 gündə 73 jurnalist və fotoqraf həbs edilib. Həbs edilənlərin bəziləri sərbəst buraxılıb, bəziləri isə hələ də həbsdədir.

Bu statistikada 38 milli və müstəqil media jurnalisti, 25 əyalət jurnalist və 10 fotoqraf var. Həbs olunan jurnalistlər əsasən "Şərq", İLNA , İRNA, İSNA, "Fəraz", "Həmmihən" və digər mətbu orqanların jurnalist və fotoqraflarıdır.



## "Hər şeyi Prezident özü edəsi deyil ki?!"

Etibar Məmmədov Qərbi azərbaycanlılara səslənib

(səh.4)



## "Reallıq odur ki, Naxçıvanda çox ağır vəziyyət yaranmışdı"

Fərəc Quliyev: "İnsanlar özlərini sanki "konslagerdə" hiss edirdilər"

(səh.5)



# Prezident iki Mərkəzin açılışında olub

## İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva burada yaradılan şəraitlə tanış olublar



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Bakıda Uşaq-Gənclər İnkişaf Mərkəzində əsaslı təmir və bərpadan sonra yaradılan şəraitlə tanış olublar.**

Elm və təhsil naziri Emin Əmrullayev Mərkəzdə yaradılan şərait barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdi.

Bildirildi ki, 1937-ci ildə Bakıda S.Vəlixanlı küçəsi 3 ünvanında yerləşən binada Mərkəzi Pionerlər Sarayı yaradılıb. Bundan məqsəd uşaqların asudə vaxtını səmərəli və məqsədəuyğun təşkil etmək, onların bilik, bacarıq və vərdişlərini inkişaf etdirmək, məktəbdənkənar tərbiyə işinin təşkilində uşaqlara praktiki və metodiki kömək göstərməkdən ibarət olub.

İlk vaxtlar sarayda texniki yaradıcılıq, bədii tərbiyə, təsviri sənət, fiziki tərbiyə üzrə dərnəklər fəaliyyət göstərib. 1946-cı ildə sarayda xoreoqrafiya, xalq çalğı alətləri, qarmon ifaçıları və xor kollektivlərindən ibarət mahnı və rəqs ansamblı yaradılıb. Bəstəkar Qəmbər Hüseynli ansambl üçün "Cücələrim" mahnısını yazıb. Məhz bu səbəbdən 1959-cu ildə kollektiv "Cücələrim" adlandırılıb.

Təqribən 15 il sonra -1961-ci ilin aprelində dünyanın ilk kosmonavtının şərəfinə saraya Yuri Qaqarinin adı verilib. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 dekabr 1991-ci il 427 saylı qərarına əsasən Y.Qaqarin adına pioner və məktəblilər sarayının adı dəyişdirilmiş, Tofiq İsmayılov adına Respublika Uşaq-Gənclər Yaradıcılıq Sarayı adlandırılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 1 noyabr tarixli qərarına uyğun olaraq Təhsil Nazirliyi Respublika Ekoloji Tərbiyə və Tərcübəçilik Mərkəzi, Respublika Gənc Turistlər və Diyarşünaslıq Mərkəzi və Tofiq İsmayılov adına Bakı Şəhəri Uşaq-Gənclər Yaradıcılıq Sarayı birləşdirilərək onların bazasında Uşaq-Gənclər İnkişaf Mərkəzi yaradılıb, bu il isə ona publik hüquqi şəxs statusu verilib.

Fəaliyyəti dövründə minlərlə istedadlı gəncin müxtəlif ixtisaslar üzrə formalaşmasında mühüm xidmətləri olan Mərkəz 2022-ci ildə əsaslı təmir edilib. İstifadəyə verildikdən sonra Mərkəzdə rəqs, musiqi alətləri, vokal, sağlam həyat tərzi, teatr, rəssamlıq, xarici dillər, intellektual inkişaf, elm və texnologiya, ekoklub, psixologiya, kulinariya və turizm istiqamətləri üzrə 44 dərnək təşkil olunub. Həmin dərnəklərdə 1500 nəfərədək şagirdin məşğul olması nəzərdə tutulub. Həmçinin binada 20 inzibati, 20 texniki və 65 pedaqoji işçi çalışacaq.

Qeyd edək ki, bu Mərkəzin binasının əsaslı təmiri və bərpası Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın gənc nəslin müasir dövrün inkişaf trendlərinə uyğun formalaşmasına göstərdikləri diqqət və qayğının daha bir nümunəsidir.

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda "STEAM İnnovasiya Mərkəzi"nin də açılışında iştirak ediblər.*

Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına və birinci xanıma Mərkəzdə yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, "STEAM İnnovasiya Mərkəzi"nin dördmərtəbəli yeni binasında aviasiya məkanı, klassik Nyuton, uşaqlar üçün Nyuton, konfrans, oyun, konstruksiya, "Heureka Classics" otaqları, robotların hazırlanması laboratoriyası, "3D hologram", VR zonaları mövcuddur.

Qeyd edək ki, müasir dünya reallıqları gələcəkdə yüksəkixtisaslı mütəxəssislərin yetişməsi üçün təhsil qarşısında bir çox mühüm vəzifələr qoyur. Həyatın bütün sahələrində işlərin yeni dünya düzəninə uyğun qurulması üçün təhsil ocaqlarında öyrənmək maraqlı olmalı, bilik təcrübədə tətbiq edilməli, təlim maraqlı formada keçilməlidir. Yəni, bu günün məzunları müasir tələblərə cavab verən, əmək bazarında özünü doğruldan şəxslər olmalıdır. Elə bu məqsədlə də Elm və Təhsil Nazirliyi 2019-2020-ci tədris ilindən başlayaraq Heydər Əliyev Fondunun dəstəyi ilə "STEAM Azərbaycan" layihəsinə start verib. STEAM - elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyatın birləşməsi nəticəsində yeni ideyaların reallaşdırılması, cəmiyyətdə müxtəlif problemlərin həllinə kömək edə biləcək təhsil yanaşmasıdır. Hazırda ölkəmizin bir sıra məktəblərində STEAM otaqları və mərkəzləri fəaliyyət göstərir.

Diqqətə çatdırıldı ki, "STEAM Azərbaycan" layihəsinin davamı olan "STEAM İnnovasiya Mərkəzi"nin fəaliyyəti orta məktəblərdə eyniadlı mövcud mərkəzlərin tədris proqramına görə fərqlənir. Bu Mərkəzə müraciət edən müxtəlif yaş kateqoriyasından olan məktəblilər və tələbələr XXI əsr bacarıqlarını - kreativliyi, əməkdaşlığın inkişaf etdirilməsini, müxtəlif proqramlaşdırma dillərini tətbiq etməklə müasir İKT avadanlıqlarından istifadə qabiliyyətlərini yüksəldəcəklər. Uşaqlar real həyat problemləri ilə qarşılaşdıqda, STEAM metodu vasitəsilə onun rahatlıqla ən uyğun həlli yollarını tapmağa çalışacaq və yaradıcı yanaşmalarını nümayiş etdirəcəklər.

Məlumat verildi ki, bu Mərkəzin məqsədi şagirdlərin potensialını və maraqlarını cəmiyyətə xidmət işinə yönəltmək, onları öyrənməyə həvəsləndirməkdir. STEAM tədris üsulu müasir dövrdə ölkənin sosial-iqtisadi inkişafında çox böyük əhəmiyyətə malikdir. Belə ki, uşaqlar bu metod vasitəsilə elmin digər sahələri ilə yanaşı, beyinlərinin məhsulunu ortaya qoya biləcək, gələcəyin mütəxəssisləri kimi yetişəcək və ölkənin inkişafına töhfələrini verəcəklər.

Bu Mərkəzin yaradılması dövlətimiz tərəfindən ölkəmizdə elm və təhsil sahəsində yeniliklərin tətbiqinə, təhsilin müasir tələblər səviyyəsində inkişaf etdirilməsinə, gənc nəslin yeni ideyaların reallaşdırılmasına göstərilən diqqətin və verilən əhəmiyyətin əyani təzahürüdür.

# Azərbaycan Ermənistanla bağlı Beynəlxalq Ədalət Məhkəməsinə ikinci müraciət təqdim edib



**Azərbaycan tərəfi Ermənistanın azərbaycanlıların insan hüquqlarının məqsədyönlü şəkildə pozulmasına cavab olaraq, "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Beynəlxalq Konvensiya (CERD) çərçivəsində təcili tədbirlər görülməsi məqsədilə Beynəlxalq Ədalət Məhkəməsinə ikinci müraciətini təqdim edib.**

*Xarici İşlər Nazirliyindən (XİN) "Şərq"ə verilən məlumata görə, xüsusilə, Ermənistanın 2021-ci ildən başlayaraq Azərbaycan ərazisində minalar və evlərdə mina tələlər yerləşdirməkdə davam etdiyinə dair yeni sübutlar mövcuddur.* Bu minalar və mina tələlər Ermənistanın qanunsuz işğalı nəticəsində azərbaycanlıların 30 il əvvəl qovulduğu mülki yaşayış məntəqələrində və ya onların yaxınlığında yerləşdirilməklə məcburi köçkün ailələrinin və icmaların öz evlərinə qayıtmasına maneə törədir.

"Ermənistan tərəfi Üçtərəfli Bəyanatı kobud şəkildə pozaraq hərbi təxribatlarını davam etdirib və 2022-ci ilin avqust ayından etibarən Azərbaycanda 2021-ci il Ermənistan istehsalı 2700-dən çox mina aşkar olunub. Minaların Ermənistanın Üçtərəfli Bəyanatla bütün hərbi əməliyyatları dayandırmağa, qüvvələrini Azərbaycandan çıxarmağa və azərbaycanlı məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərə qayıtmasına razılığından sonra yerləşdirdiyinə dair sübutlar mövcuddur. Sözügedən minaların yarıdan çoxu azərbaycanlı məcburi köçkünlərin qayıtmalı olduğu mülki ərazilərdə aşkar edilib. Bundan əlavə, Ermənistan bu minaların və digər silahların daşınması məqsədilə yalnız humanitar məqsədlər üçün nəzərdə tutulan Laçın yolundan açıq şəkildə istifadə edir.

Mülki ərazilərin minalarla hədəfə alınması nəinki günahsız mülki şəxslərin həyatına təhdid yaradır, Azərbaycanın hələ də əldə olunmasına sadiq qaldığı sülh sazişini təhlükə altında qoyan bir təxribatdır. Cəmi üç həftə əvvəl Kəlbəcər rayonunda minanın partlaması nəticəsində 7 azərbaycanlı, o cümlədən, bərpa işlərində iştirak edən 4 mülki şəxs yaralanıb, bir azərbaycanlı isə həlak olub.

Azərbaycan mülki vətəndaşlarının qayıdacaqları rayonların operativ, təhlükəsiz və effektiv şəkildə minalardan təmizlənməsi istiqamətində Ermənistanın dərhal lazımi addımlar atması, mülki əraziləri mina və digər partlayıcı maddələrlə hədəfə alması və bu xüsusda Laçın yolundan istifadəni dayandırması məqsədilə Beynəlxalq Ədalət Məhkəməsinə müraciət edib.

Azərbaycan tərəfi beynəlxalq insan hüquqları hüququnu pozduğuna görə Ermənistanın məsuliyyətə cəlb edilməsi istiqamətində səylərini davam etdirəcək", - XİN-in məlumatında deyilir.

# Putin Ukraynanın bütün təmas xətti boyunca atəşkəs elan edib

## Rusiya Prezidenti Patriarx Kirillin müraciətini nəzərə alıb



**Rusiya Prezidenti Vladimir Putin müdafiə naziri Sergey Şoyquya 6 yanvar saat 12:00-dan 7 yanvar 24:00-dək Ukraynanın bütün təmas xətti boyunca atəşkəs rejiminin tətbiq edilməsini tapşırıb.**

Bu barədə Kremlin mətbuat xidmətindən bildirilib.

"Patriarx Kirill həzrətlərinin müraciətini nəzərə alaraq, Rusiya Federasiyasının Müdafiə nazirinə 6 yanvar 2023-cü il saat 12:00-dan 7 yanvar 2023-cü il saat 24:00-dək Ukraynada qoşunların təmas xətti boyunca atəşkəs rejimini tətbiq etməyi tapşırıram.(apa)

Döyüş rayonlarında pravoslavlığa ibadət edən çoxlu sayda vətəndaşın yaşadığını əsas götürərək, biz Ukrayna tərəfini atəşkəs elan etməyə və onlara Milad bayramı, İsa Məsihin doğum günü mərasimlərində iştirak etmək imkanı verməyə çağırırıq", deyə Putinin Kremlin saytında yerləşdirilən göstərişində qeyd olunub.

# Azərbaycan Moskvanın oyununu poza bildi

## Azərbaycan regionda toqquşan maraqları öz faydasına çevirmək üçün manevrlərini davam etdirəcək

**"2023-cü ildə Azərbaycanın xarici siyasət prioritetlərinin məzmununa yeni forma və ölçü veriləbilər. Bu, Cənubi Qafqazda yaranan postmünaqişə reallıqları və həmin gerçəkliklərin gətirə biləcəyi risklərlə əlaqədar olaraq inkişaf edəcək".**

**Bu sözləri "Şərq"ə açıqlamasında siyasi şərhçi Aqşin Kərimov deyib. Analitik bildirib ki, Azərbaycan dövlət olaraq qlobal, regional şəraitdə baş verən dəyişikliklər səbəbi ilə milli təhlükəsizliyə təhdidlərin aradan qaldırılmasını və ya onu nəzarətdə saxlamağı qarşıya məqsəd qoyur:** "Fərz etmək olar ki, Azərbaycan təhdidlərin mahiyyətcə dərinləşən temperamentini, praktik cəhətdən artan xarakterini yeni şəraitə uyğun olaraq təhlil etmək üçün Hərbi Doktrinaya və Milli Təhlükəsizlik Konsepsiyasına dəyişiklik etməyi planlaşdırır. Hələlik bu barədə heç bir rəsmi açıqlama yoxdur. Amma nəzərə alaq ki, təhlükəsizliyin və təhdidlərin sərhədlərini göstərən bu iki mühüm sənəddə postmünaqişə dövrü kontekstində bir çox redaktəyə ehtiyac duyulur. Ona görə ki, həmin iki sənəd Qarabağ münaqişəsi dövründə işlənilib-hazırlanıb. Cari vəziyyətə adekvat cavab verən postulatlara malik olsa da, bəzi mətləblər postmünaqişə şəraitində qiymətləndirilməlidir.

Azərbaycan hüquqi olaraq hələlik bu sənədləri yeni redaksiyada təqdim etməsə də, əməli müstəvidə mövcud gerçəkliklər və onların hansı fəsadlar törədəcəyini nəzərdən keçirərək siyasət yürüdür. Yəni Azərbaycan xarici siyasətində balanslı kökdən qopmayıb və qopması da gözlənilmir. Çünki ölkənin yerləşdiyi coğrafiya, onun təbii sərvətləri qlobal oyunçuların nəzərlərini iltisaqdırır. Bakı itilənən diqqətlərdə küt davrana bilməz və bu çevikliyə əsaslanan məharətini ara-sıra hərbi güclə nümayiş etdirir".

*A.Kərimov diqqətə çatdırıb ki, Türkiyədən strateji müttəfiqlik ruhuna uyğun olaraq böyükmiqyaslı dəstək alması, Qərblə münasibətlərindəki dərinləşən əməkdaşlıq, İsraillə münasibətlərində yeni səhifələrin açılması, Rusiya ilə əlaqələrində dinamika Azərbaycanı daha da ruhlandırır:* "Azərbaycan 2023-cü ildə çoxşaxəli xarici siyasət kursunu daha da təkmilləşdirəcək və regionda toqquşan maraqları öz faydasına çevirmək üçün manevrlərini davam etdirəcək. Ölkənin xarici siyasətində beş istiqamət üzrə çətinliklər mövcuddur və bu il onların düzəldilməsi istiqamətində qarşılıqlı səylər göstərilə bilər. Birincisi, Azərbaycan-Rusiya əlaqələrinin nizamını sarsıdan mərhələ yoxdur və belə bir zəmin də mövcud deyil. Ancaq Bakı Kremlin Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərindəki ermə-ni kartı ilə oynamaq cəhdlərini zərərsizləşdirmək üçün danışıqlar aparır. Nəticə hasil olmayanda isə Moskvanın oyunlarını başqa manevrlərlə pozur. Deməli, Azərbaycanla Rusiya, əsasən, sülhməramlıların müvəqqəti xidmət zonasındakı proseslərdə eyni nöqtəyə vura bilmirlər. Moskva Ruben Vardanyandan tuz kimi istifadə etmək istəyir, məqsədi Cənubi Qafqazdakı milyarderlər layihəsi ilə boz kardinallıq institutunu inkişaf etdirmək və prosesi tamamlamaqdır. Amma Azərbaycan Moskvanın oyununu poza bildi və Vardanyan üzrə Kremlin manevrlərini məhdudlaşdırdı. Bu il həmin istiqamətdə müzakirələr davam edə bilər və ehtimal vermək çətindir ki, Moskva Azərbaycanı Vardanyanın badına versin. Digər yandan ABŞ Azərbaycanla münasibətlərindəki bəzi mübahisəli tezislərə rəğmən, Bakıya dəstəklər nümayiş etdirir, onun Avropanın enerji bazarlarındakı artan roluna alqış sədaları ilə cavab verir. Azərbaycan ABŞ-nin diqqətini cəmlədiyi Xəzər regionu və onun təhlükəsizliyi məsələsində Vaşinqtonla yeni əməkdaşlıq təcrübəsi üçün müzakirələri intensivləşdirməyi vacib sayır. Azərbaycanın bir-birinə rəqib olan ABŞ və Rusiya ilə münasibətlərdəki tarazlayıcı yerinin qorunması qarşılıqlı maraqlar platformasındakı razılıqlara dayanır".



**Bakı-Tehran əlaqələrindəki gərginliyə vurğu edən ekspertin fikrincə, Azərbaycanın bir-birinə rəqib olan ABŞ və Rusiya arasındakı rəqabətdə tutduğu tarazlayıcı mövqeyi onu təhlükələrdən sığortalayır:** "Bu, qarşılıqlı maraqların önə çəkilərək müzakirələrin qabardılmasını aktuallaşdırsa da, Bakının İranla münasibətləri haqqında eyni sözləri demək çətindir. Çünki İranın səhvi Azərbaycana qarşıdır və hədsiz qərəz, şiddətli hədə ritorikasına əsaslanır. Azərbaycan isə təklif verir, praqmatik üsullarla əlaqələrin yaxşılaşdırılmasını istəyir, ancaq qarşı tərəfin qopardığı tozanaq prosesi zədələyir. Üstəgəl, Bakı İran qarşısında böyük strateji üstünlüklərə malikdir, ona görə də İran Azərbaycanla münasibətlərin yoluna qoyulmasını istəyirsə, Bakıya minnətçi düşməlidir. Problematik prioritet Fransa ilə əlaqəlidir, Parisin yanaşmasındakı cığallıq Avropa İttifaqının Azərbaycan-Ermənistan münasibətlərinin tənzimlənməsindəki rolunu da sual altına qoyur. Fransa yenidən cəhdlər edərək özünü Avropa İttifaqı formatındakı danışıqlara pərçim etməyə cəhdlər göstərə bilər. Hərçənd ki, Bakı buna imkan vermir.

Beşincisi, qonşu Ermənistanın regional bəlaya çevrilməsi ilə əlaqədardır. İrəvan Azərbaycanın münasibətlərində mübahisəli məqamlar və bəzi ölkələri öz səfinə çəkərək revanşizm müstəvisinə ayaq basmaq istəyir. Amma Azərbaycanın cazibəsi, gücü və potensialı həmin ölkələri Ermənistandan qaçırır, hələlik isə üç ölkə bu xətdən ayrılmayıb - Fransa, İran və Hindistan".

**İsmayıl Qocayev**

# İranda daha bir gəncə ölüm hökmü çıxarıldı



**İranda daha bir gənc üçün ölüm hökmü oxunub.**

Bu barədə "Azad İran" "Telegram" kanalı məlumat verib.

Novşəhrdə keçirilən ümummilli etirazlar zamanı həbs edilən 18 yaşlı Arşiya Təkdestan İnqilab Məhkəməsi tərəfindən ölüm cəzasına məhkum edilib.

Ona qarşı "korrupsiya" və "müharibə" ittihamları irəli sürülüb.

*Qeyd edək ki, İranda 22 yaşlı Məhsa Əminin qətlə yetirilməsindən sonra başlanan ümummilli etiraz aksiyaları zamanı saxlanılan bəzi etirazçılara ölüm hökmü çıxarılıb.*

# Türkiyədə dollar yenidən rekord səviyyədə bahalaşıb



**2022-ci ilə 18.71 Türkiyə lirəsi səviyyəsində bağlayan dolların məzənnəsi bu gün rekord səviyyəyə yüksəlib.**

"APA-Economics" xəbər verir ki, dolların məzənnəsi 18.78 TL səviyyəsindən yuxarı qalxaraq yeni rekord səviyyəyə (18,7868 TL) çatıb.

Avro isə 19,96 TL-yə yüksəlib.

*Qeyd edək ki, Türkiyə Mərkəzi Bankında dolların bu günə olan məzənnəsi isə 18.7387 -18.7725 TL, avronun məzənnəsi isə 19.8886 -19.9245 TL təşkil edib.*





# Türkiyə vasitəçilik etməyə hazırdır

## Ərdoğan Putinlə Zelenskini yenə sülhə çağırdı

**Prezident Rəcəb Tayyib Ərdoğanla Rusiya Prezidenti Vladimir Putin arasında telefon danışığı olub. Görüşdə Türkiyə-Rusiya əlaqələri, xüsusilə enerji, Rusiya-Ukrayna müharibəsi və Suriya başda olmaqla regional mövzular müzakirə edilib.**

"Şərq" Türkiyə mətbuatına istinadən xəbər verir ki, Prezident Ərdoğan görüşdə Türkiyədə təbii qaz mərkəzinin yaradılması üçün infrastrukturu gücləndirdiklərini və gücləndirməkdə davam etdiklərini ifadə edərək, yol xəritəsini ən qısa zamanda tamamlamağı və onun həyata keçirilməsi üçün konkret addımlar atmağı hədəflədiklərini bildirib.

Rusiya-Ukrayna müharibəsi ilə bağlı taxıl dəhlizində aparılan danışıqlar, əsir mübadiləsi və Zaporojye Atom Elektrik Stansiyası ətrafında təhlükəsiz zona təşəbbüslərinin müsbət nəticələrinin şahidi olduqlarını xatırladan Ərdoğan, sülh və danışıqlara çağırışların birtərəfli qaydada dəstəklənməli olduğunu söyləyib. Ərdoğan terror təşkilatı PKK/PYD-nin Türkiyənin sərhəd bölgələrindən, xüsusilə Tel Rıfat və Mənbicdən təmizlənməsi üçün artıq konkret addımların atılmasının lazım olduğunu vurğulayıb. O, Əsəd rejiminin konstruktiv olması və siyasi prosesdə müəyyən addımlar atmasının zəruriliyinə diqqət çəkib.

Görüşlə bağlı Kremldən də açıqlama verilib. Açıqlamaya görə, Putin Ərdoğana deyib ki, dialoq üçün Ukrayna ərazi itkisini qəbul etməlidir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan dünən ukraynalı həmkarı Vladimir Zelenski ilə də telefon danışığı aparıb.

Bu barədə Türkiyə Prezident Administrasiyası məlumat yayıb.

Türkiyə və Ukrayna liderləri humanitar yardım və taxıl dəhlizini müzakirə ediblər.

Ərdoğan Zelenskiyə Türkiyənin Moskva ilə Kiyev arasında davamlı sülh üçün vasitəçilik etməyə hazır olduğunu bildirib.

Türkiyə dövlət başçısı əsir mübadiləsi məsələsində çalışmaların davam etdiyini diqqətə çatdırıb.

Ərdoğan eyni zamanda, Zaporojye AES-lə bağlı prosesi sürətləndirmək üçün diplomatik töhfə verə biləcəklərini ifadə edib.

**İsmayıl**

# ABŞ vasitəçiliyi ələ almağa çalışır

## Bu təşəbbüs Vaşinqtonun real sülh müqaviləsinin bağlanması istiqamətində aparılan danışıqlarda maraqlı olduğunu göstərir



**ABŞ dövlət katibi Entoni Blinken yaxın günlərdə Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov və Ermənistan xarici işlər naziri Ararat Mirzoyanla telefon danışığı aparacaq. Bu barədə ABŞ Dövlət Departamentinin sözçüsü Ned Prays deyib.**

*Politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə açıqlamasında deyib ki, Vaşinqton ilin ilk günündən başlayaraq, Azərbaycan və Ermənistan arasında vasitəçiliyi ələ almağa çalışır. Analitikin qənaətincə, bu təşəbbüs Vaşinqtonun real sülh müqaviləsinin bağlanması istiqamətində aparılan danışıqlarda maraqlı olduğunu göstərir:* "Blinkenin hər iki tərəflə aparacağı telefon danışığında sülh müqaviləsinin bağlanması istiqamətində əldə olunan razılaşmaların icrası, Laçın dəhlizi ilə bağlı məsələlər, həmçinin İrəvanın Vaşinqton gündəliyinə qayıtması müzakirə ediləcək. ABŞ Dövlət katibinin xarici işlər nazirlərinin növbəti görüşünü təşkil edəcəyi də gözlənilir. Vaşinqton bu görüşü təşkil etməklə İrəvanın manipulyasiya siyasətinin qarşısını almaqla konkret predmet üzrə müsbət nəticəyə yönələn mövqe ortaya qoymağı planlayır. Əgər xarici işlər nazirləri görüşərsə, mart ayına kimi Prezident İlham Əliyev və Nikol Paşinyanın görüşü təşkil oluna bilər. Belə bir görüşün keçirilməsində ABŞ israrlıdır və Moskvanın vasitəçiliyini kənarlaşdırmaq üçün bu il maksimum diplomatik hərəkətliliyi artıracaq".

**Ekspertə görə, Moskvadan fərqli olaraq Vaşinqton Cənubi Qafqazda sülhün əldə edilməsinə çalışır və Azərbaycanın tədqim etdiyi sülh təkliflərini sülhün əsas komponenti olaraq qəbul edir:** "Ağ Ev liderlərin görüşünü Avropada deyil, Vaşinqton, yaxud Tbilisidə təşkil edə bilər. Azərbaycan ABŞ-nin vasitəçiliyinə etimad edir. Amma rəsmi İrəvanın mövqeyində kardinal dəyişikliklər etmək üçün Vaşinqtonun siyasi təzyiqinə ehtiyac var. Dəyişən geosiyasi reallıqlar fonunda Nikol Paşinyan Vaşinqton gündəliyindən kənarlaşarsa, Azərbaycan güc tətbiq etmək məcburiyyətində qalacaq. Vaşinqton həm Laçın, həm də Zəngəzur dəhlizində hər iki tərəfin suverenliyinin tətbiq olunmasını təklif edir. Ermənistan Laçın dəhlizində Azərbaycanın nəzarətinə qarşıdır. Paşinyan Rusiya variantına üstünlük verdiyini ötən ilin son aylarında açıqlamasında qeyd edib. Amma Vaşinqtonun son təzyiqləri fonunda Tbilisidə görüşün keçirilməsi ideyasını dəstəklədiyini vurğulayıb".

**İsmayıl Qocayev**

# Biz hazırıq...

## Müharibə başlasa Ermənistanın aqibəti bu dəfə daha ağır olacaq



Beynəlxalq Böhran Qrupunun proqnozlarının erməni saytları tərəfindən də geniş yayılması bunun əyani sübutudur

**Beynəlxalq Böhran Qrupu Ermənistanla Azərbaycan arasında yeni münaqişə ola biləcəyini iddia edib. Təşkilatın ekspertləri qarşıda gözlənilən risklərlə bağlı məqalə yayıblar. Analitik məqalədə iddia edilib ki, sanki Ermənistan və Azərbaycan yeni qarşıdurmaya doğru irəliləyir. Onların rəyinə görə, Rusiyanın Ukraynadakı uğursuzluqları regiondakı hesablamaları alt-üst edib:**

"Yeni müharibə daha qısa, lakin 2020-ci ildəki altı həftəlik münaqişədən az dramatik olmayacaq. O vaxtdan balans daha da Azərbaycanın xeyrinə dəyişdi. Ənənəvi silah alverçisi olan Rusiyanın təchizat çatışmazlığı səbəbindən Ermənistan ordusu qoşunlarını və silah-sursatını artırmayıb. Azərbaycan isə əksinə, güclənir. Onun ordusu Ermənistan ordusundan bir neçə dəfə böyükdür, daha yaxşı təchiz olunub və Türkiyənin dəstəyini alır. Avropanın Azərbaycan qazına artan tələbatı da Bakını ruhlandırır".

Hesabatda xüsusilə qeyd olunur ki, 2020-ci ildə əldə olunan atəşkəsdən sonra Rusiya Qarabağda sülhməramlılar yerləşdirib. Həmçinin Ermənistan-Azərbaycan sərhədinin 44 günlük müharibədən sonra yeni cəbhə xəttinə çevrilmiş həmin hissələrində öz sərhəd qüvvələrini və hərbi heyətini gücləndirib: "Rusiya qüvvələri keçən il bir neçə cəhdin qarşısını ala bilmədi. Mart və avqust aylarında Azərbaycan qoşunları Qarabağda yeni əraziləri, o cümlədən strateji yüksəkliklərə sahibləndi. Sentyabrda isə Azərbaycan hərbçiləri Ermənistan ərazisinə belə daxil olmağı bacarıb". BBQ hesabatında qeyd edilib ki, danışıqların heç nəyə gətirib çıxarmayacağı və ya növbəti hərbi münaqişəyə səbəb olacağı təqdirdə, bu həm Moskvanın, həm də Qərbin hazırladığı planların əbəs olacağına səbəb olacaq: "Azərbaycan isə güc yolu ilə istədiyini alacaq".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bildirib ki, Beynəlxalq Böhran Qrupunun proqnozlarının erməni saytları tərəfindən də geniş yayılması separatçıların və onların dəstəkçilərinin çıxılmaz vəziyyətdə olduğunun əyani sübutudur. Analitik vurğulayıb ki, hesabat müəllifləri Azərbaycanın xeyrinə işləyən digər amilə də diqqət çəkiblər:**

"Avropanın Azərbaycan qazına ehtiyacı var. Hesabat müəllifləri bununla demək istəyiblər ki, Azərbaycana yeni hədəflərinə çatmaqda Avropa mane olmayacaq. Azərbaycan-Ermənistan qarşıdurmasından yazarkən tez-tez Ukraynadakı müharibəyə istinad ediblər. Bu o deməkdir ki, dünyanın diqqəti Ukraynadadır. Azərbaycan Ermənistanı sıxışdırmaqda davam edərsə, bu, beynəlxalq aləmin ciddi reaksiyasına səbəb olmayacaq. Beynəlxalq Böhran Qrupunun hesabatı bu gün baş verənlərlə səsləşir. Azərbaycan Ordusu 2022-ci ilin sentyabr ayında Ermənistanla təmas xəttində strateji yüksəklikləri nəzarətə götürdü. Ermənistan hakimiyyəti Rusiya və Qərb ölkələrindən dəstək istədi. Rusiya və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı məsələyə qarışmadı, erməni siyasətçilər və erməni cəmiyyəti məyus oldu. Azərbaycan fəalları Ermənistanla Qarabağı birləşdirən yolda etiraz aksiyasına başladılar. Ermənistan yenə Rusiya və Qərb ölkələrindən dəstək istədi. Nəticə yenə eynidir, İrəvan Fransanın əli ilə BMT Təhlükəsizlik Şurasında Azərbaycan əleyhinə qətnamə qəbul etdirməyə çalışdı, alınmadı. Azərbaycanın BMT Təhlükəsizlik Şurasının daimi və qeyri-daimi üzvləri arasındakı tərəfdaşları Fransaya Azərbaycan əleyhinə qətnamənin müzakirəyə çıxarılmasına imkan vermədilər. Belə vəziyyətdə Ermənistanın heç bir ümid yeri yoxdur, yeganə alternativi Azərbaycanın ərazi bütövlüyünü və Qarabağı Azərbaycan ərazisi kimi tanımaq və bu şərtlər daxilində sülh sazişini imzalamaqdır. Ancaq separatizmlə zəhərlənən beyinlər hələ buna imkan vermir".

**İsmayıl Qocayev**

# Paris mat qaldı

## Fransa geosiyasi oyunları ilə Cənubi Qafqaza soxulmaq istəyirdi



**"2023-cü il ərəfəsində ölkəmiz diplomatiya tarixində növbəti qələbəyə imza atdı". Bu barədə siyasi şərhçi Turan Rzayev deyib. Analitik vurğulayıb ki, Fransa və Ermənistanın Laçın yolundakı vəziyyət ilə bağlı BMT TŞ-yə təqdim etdiyi erməniyönümlü bəyanatının qəbulunun qarşısı alınıb:**

"Böyük Britaniya, BƏƏ, Rusiya və Albaniya Fransanın təşəbbüsünün əleyhinə çıxış ediblər. Azərbaycanın Qarabağ iqtisadi rayonunda faydalı yataqların qanunsuz istismarı əleyhinə Xankəndi-Laçın yolunda keçirilən etiraz aksiyası iyirmi gündür davam edir. 20 gündür Laçın yolundan qanunsuz məqsədlər üçün istifadə edə bilməyən Ermənistan, guya, Laçın dəhlizinin blokadada olmasını iddia edərək BMT-nin Beynəlxalq Ədalət Məhkəməsinə müraciət etdi. Dekabrın 20-21-də isə BMT TŞ-nin daimi üzvü və hazırda TŞ-nin sədri kimi Fransa strateji tərəfdaşı və müttəfiqi Ermənistana dəstək olmaq məqsədilə Laçın-Xankəndi yolundakı vəziyyəti "humanitar fəlakət" kimi təqdim edən riyakar və tam ermənipərəst mətn hazırlayıb BMT TŞ-nin iclasını çağırdı. Müqayisə üçün deyim ki, bu, ilk belə hal deyil. Belə ki, 2022-ci ilin sentyabr hadisələrindən sonra da Ermənistanın müraciəti əsasında BMT TŞ-nin gündəliyinə "Ermənistanın BMT yanında Daimi nümayəndəsinin məktubu" adlı bənd daxil edilmişdi. Aydın məsələdir ki, sözügedən müraciət əsasında TŞ-nin gündəliyinə həmin bəndin daxil edilməsi Fransanın dəstəyi olmadan baş verə bilməzdi".

**Ekspert qeyd edib ki, BMT TŞ-nin 4 qətnaməsi ola-ola 30 il ərzində BMT TŞ Ermənistanın Azərbaycana qarşı, təcavüzünə qarşı bir dəfə də olsun toplantı keçirməməsi də diqqət çəkir:** "Mümkündür ki, bu illər ərzində bənzər toplantının keçirilməsinin qarşısını alan ölkələrdən biri, hətta birincisi məhz Fransa idi. Mətn üzərində sözün əsl mənasında işlər gedir, qəbulu üçün bütün vasitələrə əl atılırdı. Rəsmi Paris bəyanatın qəbul ediləcəyinə əmin idi. Çünki prosesləri bilavasitə Fransa Prezident Administrasiyası və E.Makronun xarici siyasət məsələləri üzrə müşavirləri aparırdı. Bu bəyanat qəbul ediləcəyi təqdirdə növbəti addım kimi qətnaməyə çevrilməsi mümkün idi. Lakin nə Ermənistanın, nə də Fransanın məkrli planı baş tutdu. Azərbaycan ustaca qurulmuş xarici siyasət və diplomatiya sayəsində Böyük Britaniya, BƏƏ, Rusiya və Albaniyanı tərəfinə çəkərək Fransanın məkrli planını iflasa uğratdı. Əldə edilən diplomatik qələbədə ölkə başçısı Prezident İlham Əliyevin misilsiz xidməti var. Belə ki, Prezidentin Fransa və Ermənistanın atacağı addımı öncədən hesablaması və bunun qarşısını alacaq addımlar atması diqqət çəkir. Məsələn, Prezident İlham Əliyev Qərbi Azərbaycan İcmasının üzvləri ilə görüşdə bir sıra beynəlxalq təsisatlarda Azərbaycana qarşı məkrli işlərin aparıldığına eyham etmişdi. Bundan başqa Frankofoniya və bəzi başqa beynəlxalq təşkilatlarda Azərbaycan əleyhinə olan fəaliyyətlərin təəssüf doğurduğunu bəyan etmişdi".

**T.Rzayev bəyan edib ki, bütün bunlar ondan xəbər verir ki, ölkə başçısı çox öncədən Fransa və Ermənistanın Azərbaycana qarşı məkrli plan qurduğunu bilirdi və bunun anonsunu da vermişdi:** "Məsələ ondadır ki, Fransa əslində belə geosiyasi oyunlar ilə sadəcə Cənubi Qafqaza soxulmaq istəyir. Bunun üçün isə BMT TŞ-nin daimi və qeyri-daimi üzvlərini də öz çirkin xarici siyasətinə alət etməkdən çəkinmir. Nəticə etibarilə, Prezident İlham Əliyev üstün diplomatik göstəriciləri ilə Fransanı öz oyununda məğlub etdi. Doğum günündə Qərbi Azərbaycan İcması ilə görüşdə işlətdiyi "Hətta səndən güclü olan qüvvə qarşısında heç vaxt geri addım atmamalısan, hər zaman öz hüququnu qorumalısan, xüsusilə doğma torpağını qorumalısan" ifadəsinin boşuna demədiyini göstərmiş oldu".

**İsmayıl**

# Ankaraya güvənirlər

## Ona görə Rusiya və Ukrayna arasındakı müharibənin həlli məsələsi Türkiyə ilə müzakirə edilir

**"Liderlərin gündəmində əsas müzakirə mövzusu Rusiya ilə Ukrayna arasında sülhün imzalanması olub".**

**Bunu "Şərq"ə açıqlamasında türkiyəli politoloq Abdullah Ağar Ərdoğanla Putinin telefon danışığını şərh edərkən deyib.**

Onun sözlərinə görə, Ərdoğan Putinlə danışdıqdan sonra Zelenski ilə də danışıb: "Həm rəsmi Kiyev, həm də Moskva Ankaraya güvənirlər. Bu baxımdan da Rusiya və Ukrayna arasındakı müharibənin həlli məsələsi Türkiyə ilə müzakirə edilir. Çünki rəsmi Ankara ən çox etimad olunan vasitəçidir.



Digər tərəfdən ortada müharibənin səbəb olduğu bir sıra məsələlər var.

Bunların içərisində isə ən vacibi Suriya problemidir. Məsələ ilə bağlı Türkiyə müdafiə nazirinin və MİT sədrinin rusiyalı həmkarları ilə görüşləri olub. Çox güman ki, bu, yenidən müzakirə olunmağa başlanılıb.

Üçüncü müzakirə mövzusu isə Cənubi Qafqaz problemidir. Azərbaycanın həm Zəngəzur, həm də Laçın yolu ilə bağlı məsələləri var.

Zənnimcə, Putinlə Ərdoğan arasında bu mövzu da müzakirə olunub. Dördüncü vacib hadisə isə Serbiya və Kosova arasındakı gərginlikdir. Bütün bunların əsas müzakirə mövzusu olacağını düşünürəm".

**Nihat Müzəffər**

## Yurda qayıdış





# “Öz haqqımızı qaytarmaq üçün ciddi çalışmalıyıq"

## Cəbi Bəhrəmov: “Qərbi Azərbaycan ərazisi bütöv Azərbaycanın bir hissəsidir”

**Qərbi Azərbaycandan azərbaycanlıların deportasiyası üç mərhələdə aparılıb. Birinci mərhələ 1905-1920-ci illəri, ikinci mərhələ 1948-1953-cü, üçüncü mərhələ isə 1988-1992-ci illəri əhatə edib. Statistik və arxiv sənədlərində təsdiq olunduğuna görə, bu proses nəticəsində indiki Ermənistan ərazisində yaşayan bir milyon beş yüz mindən çox azərbaycanlı tarixi torpaqlarından qovulub.**

Azərbaycanlılar yaşayan 940 yaşayış məntəqəsindən 698-nin adı Ermənistan Ali Sovetinin qərarı ilə dəyişdirilərək erməni adları ilə əvəz olunub. Ancaq ermənilər bununla da kifayətlənməyib. Ad dəyişmə əməliyyatı azərbaycanlılar bu respublikanın ərazisindən tam deportasiya edildikdən sonra da davam etdirilib. Qoca, uşaq və qadınlar da daxil olmaqla 140 min insan vəhşicəsinə qətlə yetirilib. Ümumilikdə, indiki Ermənistan ərazisində yaşamış azərbaycanlıların deportasiya tarixi 1820-1988-ci illik bir dövrü əhatə edir. Azərbaycanlıların indiki Ermənistan ərazisindəki tarixi torpaqlarından qaçqınlıq məhrumiyyətləri nəinki Azərbaycanda, eləcə də Ermənistanın özündə və başqa ölkələrdə çap olunmuş kitablarda da kifayət qədər əksini tapıb. Məlumat üçün bildirək ki, Prezident İlham Əliyev dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olub və Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşüb. Dövlət başçısı İcma nümayəndələri ilə görüşdə Qərbi Azərbaycanla bağlı mühüm mesajlar verib və soydaşlarımızın deportasiyasına diqqət çəkib.

**Tarixçi-alim, professor, AMEA-nın A A.Bakıxanov adına Tarix İnstitutunun direktor müavini Cəbi Bəhrəmov ”Şərq”ə açıqlamasında bildirib ki, Qərbi Azərbaycan İcmasının yaradılması, dövlət başçısı İlham Əliyevin öz ad günündə, dekabrın 24-də İcma nümayəndələri ilə görüşü təsadüfi xarakter daşımır. Alim vurğulayıb ki, Qərbi Azərbaycan ərazisi bütöv Azərbaycanın bir hissəsidir:** ”Qərbi Azərbaycan ərazisi 1813-cü il Gülüstan və 1828-ci Türkmənçay müqavilələrinədək ovaxtki Qacarlar İranının tərkibində qalmışdı. 1828-ci ildən sonra İrəvan xanlığının ərazisi və bütövlükdə Şimali Azərbaycan torpaqları çar Rusiyanın müstəmləkəsinə çevrildi. Yerli əhali, yəni azərbaycanlılar 1827-ci ildən başlayaraq, çar hökumətinin müstəmləkəçilik siyasəti nəticəsində öz doğma yurdlarını tərk etməyə məcbur oldular. Qaçqın və köçkünə çevrildilər. Bu vəziyyətin yaranmasının əsas səbəblərindən biri İrəvan və Naxçıvan xanlıqları ərazisində qondarma ”erməni vilayəti”nin yaradılması idi. Bölgənin yerli-köklü əhalisi haqsızlıqlarla üzləşdikləri və başqa ümidləri qalmadıqları üçün Azərbaycanın digər bölgələrinə, o cümlədən Osmanlı ərazisinə məcburi köçməli oldular”.




“Qərbi Azərbaycandan olan əhali daim sıxışdırılıb, vəzifə tutmalarına imkan verilməyib, təhqir və təhdid ediliblər”

*Tarixçi qeyd edib ki, 1905-06-cı illərdə çar hökuməti bilavasitə ermənilərin əliylə törətdiyi cinayətlər sayəsində azərbaycanlıları öz doğma yurdlarından didərgin salıb:* ”1907-ci ildən başlayaraq, uzun müddət ərzində Şəkiyə, Zaqatalaya, Qaxa xeyli köçlər olub. Azərbaycanlılar öz yaşadıqları yerləri məcburən dəyişməli olublar. Çünki 1828-ci il Türkmənçay müqaviləsindən sonra ermənilərin kütləvi surətdə Azərbaycan ərazisinə köçürülməsi prosesi başlanmışdı. Osmanlıdan 85 min, Qacar İranından 40 mindən artıq erməni bizim torpaqlarımıza köçürülüb və azərbaycanlıların yurdlarında, evlərində yerləşdirilmişdi. 1918-20-ci illərdə isə Qərbi Azərbaycan ərazisində soyqırım cinayətləri törədilib. Təkcə İrəvan quberniyası ərazisində 57 min insan qətlə yetirilib. Zəngəzur ərazisində 10 min 68 nəfər öldürülüb. 1948-53-cü illərdə azərbaycanlı əhalinin 100 min nəfərinin köçürülməsi planlaşdırılmışdı. Lakin 52 min 992 nəfər köçə məruz qalıb. Sonuncu deportasiya 1988-ci ilin sonundan, noyabr 23-dən başlayıb, 1991-ci ilədək davam edib. Qərbi Azərbaycan ərazisi tamamilə yerli əhalidən təmizlənib. Bu cinayətin xronologiyası belədir. ”Sülh” dövrünə, məsələn, 1920-30-cu illərə, yaxud 60-70-ci illərə nəzər salsaq, həmin dövrlərdə də miqrasiyanın, təzyiqlərin olduğunu görərik. Çünki Qərbi Azərbaycandan olan əhali daim sıxışdırılıb, vəzifə tutmalarına imkan verilməyib, təhqir və təhdid ediliblər. Biz də öz haqqımızı qaytarmaq üçün ciddi çalışmalıyıq”.

**C.Bəhrəmov bəyan edib ki, dövlət başçısının İcma nümayəndələri ilə görüşdə verdiyi mesajlar çox önəmlidir:** ”Mən də Qərbi Azərbaycandanam. Biz vətənimizdən məhrum edilmişik və bu, bizə qarşı törədilən ən ağır cinayətdir. Avropada qəbul edilən ”legitimlik prinsipi” anlayışı var, yəni yerli əhalinin ərazisinin əlindən alınmasına icazə verməyən qanunlar mövcuddur. Həmin qanunu dəfələrlə pozublar. Bizim legitimlik hüququmuz pozulub. Cənab Prezidentin verdiyi tapşırığa əsasən, bütün bu məsələlər qaldırılmalı, tədqiq edilməli və beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmalıdır. Qərbi Azərbaycan əhalisinin haqqı özünə qaytarılmalıdır. Əsas məqsəd budur”.

**İsmayıl Qocayev**

# "Hər şeyi Prezident özü edəsi deyil ki?!"

## Etibar Məmmədov Qərbi azərbaycanlılara səslənib



**“Naxçıvana təyin olunmuş xüsusi nümayəndə vəzifəsinin icrasına və dəyişikliklərə başlayıb. Gözləmək lazımdır ki, nəticələr də olsun”. Bu barədə ”Şərq”ə açıqlamasında Azərbaycan Milli İstiqlal Partiyasının (AMİP) qurucusu, tanınmış siyasi-ictimai xadim Etibar Məmmədov deyib. E.Məmmədov Naxçıvanın xeyli müddətdir müzakirə olunan status məsələsi ilə bağlı bunları bildirib:**

“Naxçıvanın respublika statusunda olmasına heç bir ehtiyac yoxdur. Naxçıvan Azərbaycanın bir vilayətidir və gələcəkdə də ölkəmizin tərkib hissəsi kimi qalmalıdır. Qars və Moskva müqavilələrinə görə də Naxçıvan Azərbaycanın idarəetməsində olan bir vilayət kimi konkret qeyd olunub. Ona görə də idarəetməsi başqa ölkəyə verilə bilməz”.

AMİP lideri Prezidentin Qərbi Azərbaycan İcması ilə görüşünü belə şərh edib: ”Qərbi azərbaycanlılar dövlət başçısının tapşırıqlarından nəticə çıxartsınlar və bu istiqamətdə fəaliyyət göstərsinlər. Hər şeyi Prezident özü edəsi deyil ki?!”.

**İsmayıl**

# Hələ ki, məzənnə rejiminə keçilməyib

## Azərbaycanda manatın taleyi Mərkəzi Bankın mövqeyindən asılı olacaq



**2023-ci ildə manatın məzənnəsinin necə dəyişəcəyi son günlər ən çox ünvanlanan suallardandır. Bu il devalvasiya olacaqmı? Mərkəzi Bank milli valyutanın məzənnəsinə təhdidlərin olmadığını bəyan edib. Bununla yanaşı, il ərzində qlobal proseslərə, xüsusən də regional dəyişikliklərə reaksiya veriləcəyi də istisna edilmir.**

Rusiya-Ukrayna müharibəsi fonunda 2022-ci il neft bazarı üçün düşərli olsa da, 2023-cü ilə birjalar heç də yüksək qiymətlə başlamayıb. Brent markalı neftin bir barelinin qiyməti 80 dollardan ucuz təklif olunur. Köhnə ilin son günü ilə müqayisədə neftin qiyməti son 5 gündə 8.0 faizdən çox dəyər itirib. Bu isə neft ixracatçı ölkələrin valyuta gəlirləri baxımından arzuolunan deyil.

**Millət vəkili Vüqar Bayramovun ”Şərq”ə açıqlamasına görə, 2023-cü ildə qlobal iqtisadiyyatın durumu, Çində COVİD-19 pandemiyasının yayılması coğrafiyası və tezliyi, eləcə də Rusiya-Ukrayna müharibəsinin gedişatı strateji bazarlara təsir edəcək. Böyük yeddiliyin Rusiya neftinə qiymət tavanı müəyyənləşdirməsi isə ”qara qızılın” qiymətində artımları xeyli dərəcədə məhdudlaşdırır:** ”Manatın məzənnəsinə təsir göstərən əsas iqtisadi faktorlar ölkəyə daxil olan valyutanın həcmi, eyni zamanda dövlət Neft Fondu tərəfindən hərraca çıxarılan valyutanın məbləğidir: ”Valyutaya olan tələbin əhəmiyyətli hissəsi Dövlət Neft Fondu tərəfindən ödənilir. Bu baxımdan Neft Fondunun hərraca çıxartdığı vəsaitlərin həcmi dollara olan tələbin ödənilməsində çox önəmlidir. Bu da təbii ki, manatın məzənnəsi baxımından vacib hesab olunur. Nəzərə alsaq ki, xarici ölkələrdəki tərəfdaşlarımızda milli valyutaların məzənnələri də əslində iqtisadi faktorlardan biridir.

Azərbaycanda hələ ki, məzənnə rejiminə keçilməyib. Mərkəzi Bank prosesə birbaşa intervensiya etmək imkanlarını qoruyub saxlayır. Ona görə də bu il manatın məzənnəsinin necə dəyişməsi birbaşa Azərbaycan Mərkəzi Bankının mövqeyindən asılı olacaq”.

**Şəymən**

# Ermənistan seçim qarşısındadır

## Əgər Zəngəzur dəhlizinə qarşı çıxarsa, Laçın yolu bağlanmalıdır



**”Bu il biz Zəngilan Beynəlxalq Hava Limanının açılışını etdik. Bu, azad edilmiş torpaqlarda ikinci hava limanıdır. Üçüncü hava limanı isə maksimum iki ildən sonra istifadəyə veriləcək”.**

Bu fikri Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində bildirib.

Dövlətimizin başçısı Zəngəzur dəhlizinin açılması ilə əlaqədar genişmiqyaslı işlərin aparıldığını, dəmir yollarının, avtomobil yollarının çəkildiyini qeyd edib. ”Zəngəzur dəhlizinin açılması mütləq olmalıdır, Ermənistan bunu istəsə də, istəməsə də. Biz ortaya güclü iradə qoymuşuq, bütün işlər plan üzrə gedir. Bizim tələbimiz əsaslıdır və ədalətlidir. Azərbaycanın əsas hissəsi ilə onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə bizim bağlantımız olmalıdır və olacaqdır”, - deyə Azərbaycan Prezidenti vurğulayıb.

**Prezidentin açıqlamasının yeni olmadığını deyən politoloq Fuad Abbasov ”Şərq”ə bildirib ki, bütün Azərbaycan xalqı dəfələrlə ölkə başçısının dilindən, ”Zəngəzur dəhlizi Ermənistanın kaprizlərinə baxmayaraq açılmalıdır” sözlərini eşidib:** ”Bu dəhlizin açılmasını bölgə də ən böyük güc olan Türkiyə və Rusiya dəstəkləyir. Qarşı çıxan isə Ermənistan və İrandır. Hətta onlar bizə hədə-qorxu gələrək ”Zəngəzur dəhlizinin açılması İranın qırmızı xəttinin keçilməsidir” fikirlərini ifadə etdilər.

Amma zənnimcə, Azərbaycan Xankəndi-Şuşa yolunun bağlandığı bir dönəmdə Ermənistanın qarşısına sərt bir şəkildə seçim qoymalıdır.

Yəni biz onlara ”Əgər Qarabağ ermənilərinin, İrəvanla əlaqə saxlamağını istəyirsizsə, qarşılığında Zəngəzur dəhlizinin açılmasına maneə törətməməlisiz. Yoxsa Xankəndi-Laçın yolundan söhbət gedə bilməz” deməliyik.

Digər tərəfdən Xənkəndi-Laçın marşrutu dəhliz deyil, yoldur. Yolun üstündə isə gömrükçülər, sərhəd qoruma xidməti və başqa lazımlı orqanlar öz işlərini görməlidir.

Ümumiyyətlə, Ermənistan tərəfi Zəngəzur dəhlizinin açılmasına qarşı çıxarsa, Laçın yolu bağlanmalıdır. Çünki rəsmi İrəvan üçün Qarabağ ermənilərinin bir önəmi varsa, Zəngəzur dəhlizini bizim üçün açacaq”.

**Nihat Müzəffər**

# Bu il qiymət artımı qaçılmaz olacaq

## Artıq yeni ildən marketlərdə şampun, sabun, dezodorant, ət bahalaşıb

**Yeni ilin ilk günlərində ərzaq məhsullarının qiymətində müəyyən dəyişmələr nəzərə çarpır. Əsas ərzaq məhsulları hesab edilən unun qiyməti aşağı düşüb, dana ətinin qiymətində isə bahalaşma olduğu deyilir. Bəzi məlumatlara görə, ətin qiyməti 20 manata qalxıb.**

Satıcılarsa bu xəbəri təkzib edir. Ətin qiymətinin (sümüklü, sümüksüz) 2022-ci ildə olduğu kimi yenə də 13-16 manat arası dəyişdiyini bildirirlər. İlin sonu verilən iqtisadi proqnozlar diqqətə alınarsa, qiymət artımının labüdlüyü nəzərdən qaçmamalıdır. Köhnə ilin son günləri demək olar bütün marketlər endirim kampaniyaları həyata keçirdi. Doğrudur, endirimlər cüzi idi, lakin ümumi bazarlıqda fərqi hiss etmək olurdu. Hazırda isə qiymət artımı müşahidə edilir. Bunu isə ekspertlər market şəbəkələrinin endirim kampaniyalarını kompensasiya etmək cəhdi ilə izah edir. Köhnə ildə endirimlə satışa çıxarılan məhsulların əvəzinə digər məhsulların qiymətini artırmaqla ziyanı qapatmağa çalışırlar. Ət məhsulları da bu qəbildəndir. Bayramqabağı məhsulların qiymətində endirimə getməklə alıcı cəlb etməyə çalışanlar, bayram günləri arxada qalan kimi qiymətləri yeni ilə uyğunlaşdırır. Ətin qiymətinin qalxmasını isə bayramqabağı ət məhsullarına yaranan böyük tələbat səbəbindən bazara daha çox məhsulun çıxarılması, nəticədə bayramdan sonrakı mərhələ üçün məhsulun qıt olmasıyla izah edirlər.



Buna səbəb cari ildə maaş və pensiyaların artırılacağı xəbəridir

**İqtisadçı Rauf Qarayev hesab edir ki, ətin qiymətindəki dəyişiklik otlaq sahələrinin azlığı, yemin bahalaşmasıdır.** Amma ən başlıca səbəb statistikamızda olan problemlər, düzgün olmayan proqnoz, kadrların yerində olmaması, inflyasiya, monopoliyadır: ”2023-cü il bahalaşma ili olacaq. Artıq yeni ildən marketlərdə şampun, sabun, dezodorant, ət bahalaşıb. Yalnız un bir qədər ucuzlaşıb. Buna ucuzlaşma demək olarsa. 41 manatdan 38 manata düşüb və bu da çörəyin qiymətinə təsir etməyəcək”. İqtisadçı Pərviz Heydərov da hesab edir ki, qiymət artımı qaçılmaz olacaq: ”Yeni ilin ilk günləri olsa da, artıq bir çox qiymətlərdə artım var və bahalaşma prosesində sanki yeni vüsət başlayıb. Hesab edirəm ki, buna səbəb, cari ildə maaş və pensiyaların artırılacağı xəbəridir. Hələ məlum deyil, artım hansı istiqamətlərdə və nə qədər olacaq, amma qiymətlər indidən hərəkətə keçib. Bu da birmənalı olaraq 2023-cü ilin dövlət büdcəsindən dövriyyəyə buraxılması nəzərdə tutulan əlavə vəsaitlərin qabaqcadan mənimsənilməsi deməkdir”.

**Məlahət**

# "Reallıq odur ki, Naxçıvanda çox ağır vəziyyət yaranmışdı"

## Fərəc Quliyev: "İnsanlar özlərini sanki "konslagerdə" hiss edirdilər"



**Ölkəmizdə həyata keçirilən islahatlar inkişafa mane olan problemlərin aradan qaldırılmasında mühüm rol oynayır. Bu baxımdan korrupsiya və rüşvətxorluq hallarına qarşı mübarizə tədbirlərinin gücləndirilməsi də Azərbaycan dövləti tərəfindən vacib məsələ kimi diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası üzrə Prezidentin səlahiyyətli nümayəndəliyi institutunun yaradılması, hazırkı dövrədək muxtar respublikada müşahidə olunan korrupsiya, rüşvətxorluq, qeyri-şəffaflıq və digər neqativ halların aradan qaldırılmasında da mühüm rol oynayacaq. Dövlət başçısının sərəncamı Naxçıvanın sürətli və hərtərəfli inkişafını təmin edəcək.**

İctimaiyyət nümayəndələri də Naxçıvanın yeni mərhələnin astanasında olduğunu deyirlər. Artıq start götürən islahatların muxtar respublikanın sürətli inkişafını, sosial-iqtisadi həyatın canlanmasını və vətəndaşların rifah halının yüksəlməsini təmin edəcəyinə ümid edilir. Məlumat üçün bildirək ki, islahatlar fonunda Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin ləğv olunacağı da iddia edilir. Bununla bağlı müvafiq tapşırıqların verildiyi bildirilir. Qeyd olunur ki, Naxçıvan DİN-in əvəzinə Azərbaycan DİN-in tabeliyində Naxçıvan Baş Polis İdarəsi yaradılacaq. Xatırladaq ki, Naxçıvanın həm Dövlət Təhlükəsizliyi Xidməti (DTX), həm də Dövlət Gömrük Komitəsi ləğv edilərək müvafiq olaraq Dövlət Təhlükəsizliyi Xidmətinin Naxçıvan Baş İdarəsi və Naxçıvan Baş Gömrük İdarəsi təsis edilib.

**Muxtar Respublikada gedən prosesləri "Şərq"ə dəyərləndirən Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, keçmiş millət vəkili Fərəc Quliyev Naxçıvanda kifayət qədər ciddi problemlərin olduğunu deyib. Səlahiyyətli nümayəndənin təyinatından sonrakı vəziyyəti şərh edən partiya rəhbəri Fuad Nəcəflinin ziyalı adam olduğunu, muxtar respublikanı yaxşı tanıdığını söyləyib:** "Fuad Nəcəfli işinə, vəzifəsinə məsuliyyətlə yanaşan ciddi şəxs olmaqla yanaşı, həmçinin vətəndaşların problemlərini dinləmək, dərdlərini bölüşmək bacarığına sahibdir. Bu komponentlər çox mühümdür və Fuad müəllimin işini asanlaşdıracaq amillərdir. Xüsusi nümayəndənin Naxçıvanda insanlarla görüşü, onları dinləməsi göstərir ki, həqiqətən əhali ilə bir yerdə olmaq, onların dərdləri ilə dərdlənmək və ən əsası problemlərin həllinə nail olmaq istəyir. Əslində hər yerdə olduğu kimi Naxçıvan camaatı da sadəcə istəyir ki, onları dinləsinlər. Əgər hansısa problemin çözümü mümkündürsə, dərhal həll etmək lazımdır, yox əgər, qeyri-mümkündürsə, yaxud çətindirsə, bunu əhali çox gözəl başa düşür və normal yanaşır. Vətəndaşlardan və problemlərdən qaçmaq isə qətiyyən onu həll etmək anlamına gəlmir. O səbəbdən əhali ilə mütəmadi görüş çox müsbətdir. Reallıq odur ki, Naxçıvanda çox ağır vəziyyət yaranmışdı. İnsanlar özlərini sanki "konslagerdə" hiss edirdilər. Muxtar respublikada yaradılmış rejimdən bezdikləri üçün kütləvi şəkildə Naxçıvanı tərk edirdilər. Ona görə də sakinlər əvvəlki mühitin dəyişməsində maraqlıdır. Artıq bu yöndə müəyyən addımlar atılır. Naxçıvan sakinləri özlərini polisdən, məmurdan qorumurlar. Əksinə, problemin həlli üçün onlara üz tuturlar. Naxçıvan Daxili İşlər Nazirliyinin rəhbərliyinə Süleyman Neymətovun təyinat alması böyük avantajdır. Süleyman Neymətov öz vəzifəsinin öhdəsindən gəlməyi bacaran millətçi kişidir. Çox uğurlu kadrdır. Naxçıvanda həlli zəruri olan məsələlər çoxdur. Ən əsası odur ki, bölgədə korrupsiyaya bulaşmış xeyli məmurlar var. Onlarla hesablaşmaq, vəzifədən azad etmək və yerlərini göstərmək lazımdır. Nazirliklər, idarələr ciddi yoxlamadan keçməlidir. Çünki sabah həmin şəxslər, qruplar sabotaj edə bilərlər".

***"Hər yerdə olduğu kimi Naxçıvan camaatı da sadəcə istəyir ki, onları dinləsinlər"***

*F.Quliyev vurğulayıb ki, Azərbaycandakı strukturlarla Naxçıvanın idarəetmə sistemindəki strukturlar arasında paralellik aradan qalxmalıdır:* "Yersiz nazirliklər, komitələr ləğv olunmalıdır. Ali Məclisin olması mənasızdır. Bəziləri Qars müqaviləsini əsas gətirərək iddia edirlər ki, əgər Naxçıvan Muxtar Respublikadırsa, onda bu strukturlar da qalmalıdır, toxunmaq olmaz və s. Bu düşüncələr yanlışdır. Qars müqaviləsində inzibati ərazinin adının hansı cür olması göstərilmir. Azərbaycan unitar dövlətdir və bölgələri ilə bağlı qərarı özü istədiyi formada vermə haqqına sahibdir. Buna da hazırlıqlar getməlidir".

**Partiya sədrinin fikrincə, Naxçıvanda ciddi problemlərdən biri də işsizlikdir:** "Bu problemin həlli üçün ciddi addımlar atılmalıdır. Fuad Nəcəflinin ən çox çalışmalı olduğu sahələrdən biri bu olacaq. Naxçıvanın potensialı çoxdur. Mən vaxtı ilə Parlamentdə dəfələrlə məsələ qaldırırdım ki, Bakıda hansısa bir körpünün tikintisinə qoyulan vəsaitlə Naxçıvanın bir neçə rayonunda meyvə emalı zavodları tikmək olar. Bu zaman həm yeni iş yerləri açılar, həm də insanlar məhsul yetişdirmək üçün təsərrüfatla məşğul olarlar. Naxçıvan təkcə aqrar bölgə deyil. Bölgədə mədənlər də var. Məsələn, Naxçıvanda molibden mədənini işə salmaq lazımdır. Əvvəlki rəhbərlik buna mane olmuşdu, iş dayanmışdı. Hətta Türkiyə vətəndaşı olan bir iş adamı bununla bağlı şikayətini bildirmişdi. Ordubadda Kələki bölgəsində qızıl mədənləri, Culfada uran mədəni var. Həmçinin mineral sularla zəngindir və turizm üçün potensialı böyükdür. Bu sahələri dirildərək insanları Naxçıvana qaytarmaq mümkündür. Zəngəzur dəhlizinin açılmasına da indidən hazırlıq görmək lazımdır. Ordubaddan Sədərəkə qədər yol boyu yeni infrastrukturun qurulması çox vacibdir".

**Fərəc Quliyev muxtar respublikanın əvvəlki rəhbərliyi ilə bağlı yayılmış iddialardan da söz açıb:** "İddialar var ki, Naxçıvanda keçmişdə hakimiyyətdə olanlar İraqda və başqa yerlərdə neftayırma zavodlarına 3 milyard dollar vəsait qoyub. Hətta onların terrorçu PKK liderləri ilə ortaqlığı iddia olunur. Ona görə də Naxçıvanın təhlükəsizliyi və digər məsələlərlə bağlı DTX başqa olmaqla bütün qurumların işlərini yenidən qurması çox vacibdir. Əgər iddialar doğrudursa, PKK-nın bölgədəki rüşeymləri qazınıb atılmalı, gələcəkdə yenidən dirçəlməsinə imkan verilməməlidir. Hesab edirəm ki, əgər islahatlar beləcə davam edərsə və Naxçıvan camaatı ilə çiyin-çiyinə verilərsə, nəticələr müsbət olar. Xalqımız mübariz xalqdır. Naxçıvan camaatı da daşın üstünə torpaq töküb onu becərən insanlardır. Zəhmətkeş adamlardır və əminəm ki, dövlətçiliyin arxasında möhkəm dayanacaqlar. Mən Fuad müəllim başda olmaqla bütün yeni kadrlara uğurlar arzulayıram".

**İsmayıl Qocayev**



# İnsaf qalıb sahibkarlara

## Çörəyin qiyməti ya ucuzlaşa bilər, ya da çəkisi artar

**Azərbaycanda un ucuzlaşıb. Belə ki, "Karat Holding" bir kisə "Karmen" ununun qiymətini 41 manatdan 38 manata endirib. Şirkət bunu 2022-ci ilin Azərbaycan un sənayesi üçün çətin il olması ilə əsaslandırıb. Bəs bu addımdan sonra çörəyin də ucuzlaşması gözlənilirmi?**

Məsələ ilə bağlı iqtisadçı-ekspert Akif Nəsirli "Bakupost.az"a açıqlama verib. Ekspert vurğulayıb ki, ötən il dünyada buğdanın məhsuldarlığı 20 faiz artıb: "Yəni əvvəlki illərlə müqayisədə dünyada daha çox ərzaq buğdası istehsal olunub. Bu isə dünya bazarında buğdanın qiymətinin ucuzlaşmasına gətirib çıxarıb.

Digər tərəfdən Rusiya-Ukrayna müharibəsinin başlanmasından 1 ilə yaxın vaxt keçir. Artıq dünyada alternativ qida zənciri formalaşmaqdadır. Rusiya və Ukraynanın ixracatından kənar qida zəncirinin ötən ildən formalaşması artıq başa çatmaqdadır. Ona görə də dünyada ərzaq buğdası ucuzlaşmağa başlayıb".

Ekspert hesab edir ki, unun qiymətinin ucuzlaşmasının çörəyin qiymətinə ciddi təsiri olmayacaq: "Çünki belə addımlar adətən, rəqabətli bazara təsir edir. Rəqabətli bazarda sahibkarlar qiyməti aşağı salmaq üçün fürsət axtarırlar. Amma inhisarçı bazarda qiymətin bahalaşması üçün fürsət axtarır. Yəni çörəyin qiymətinin ucuzlaşması qiymətlər daha çox aşağı düşsə, baş verə bilər. Ancaq inhisarçılıq imkan vermir ki, çörəyin qiyməti aşağı ensin.

Digər tərəfdən çörək və çörək məhsulları ilə yanaşı digər ərzaq məhsullarında da bahalaşma davam edir. Yəni bazarda çörəyin ədalətli qiymətinin formalaşması məsələsinə bir tərəfdən onun maya dəyərinin, digər tərəfdən qalan ərzaqların ucuzlaşması təsir edir. Bunlar baş vermədiyinə görə hesab edirəm ki, yaxın vaxtlarda çörəyin qiymətinin ucuzlaşması gözlənilmir".

**İqtisadçı Fuad İbrahimov "Şərq"ə açıqlamasında bildirib ki, dünya bazarında unun və yaxud taxılın qiymətində hər hansı bir dəyişiklik yoxdur. Hətta il nisbətində müqayisə etsək, xeyli artım var:** "Bu mənada Azərbaycanda unun ucuzlaşmasının dünya bazarındakı qiymətlərlə bir əlaqəsi yoxdur. Çox güman ki, ucuzlaşmaya səbəb una olan tələbatın azalması və rəqabətlə bağlıdır.

Müəyyən mənada Rusiya rublunun ucuzlaşması unun qiymətinə təsir edə bilər. Çünki Azərbaycan unu daha çox Rusiyadan idxal edir. Əgər qiymət fərqi 10-15 faiz olsaydı, bu dəyişimi dünya bazarındakı konkret faktla əlaqələndirmək olardı".

Çörəyin ucuzlaşmasına gəldikdə isə iqtisadçı deyib ki, unun qiymətindəki 2-3 manatlıq azalma çörəyin ucuzlaşmasına səbəb olmayacaq. Sadəcə, cari qiymətlərin sabit qalmasına, bahalaşmamasına təsir edə bilər: "İstənilən halda malın baza qiymətindəki ucuzlaşma qiymət əmələgətirmə prosesinə də təsir edir. Unun topdansatış qiyməti və buna müvafiq olaraq da pərakəndə satış qiymətində ucuzlaşma olacaqsa, artıq iş qalır sahibkarlara. Sahibkar bu ucuzlaşmanı istehsal etdiyi məhsulun qiymətində ifadə edə bilər, etməyə də bilər. Ola bilər, bu ucuzlaşma özünü çörəyin çəkisində göstərsin. Yəni çəkini artırıb qiyməti olduğu kimi saxlamaqla qiymətlərə təsiri ifadə etsinlər, ya da qiyməti aşağı salsınlar. Sahibkar ucuzlaşma amilini çəkinin üstünə gələ də bilər və ya ümumiyyətlə, heç bir varianta getməz".

**Şəymən**

# BMT-də fiasko...

## Ermənistan sülh prosesindən ikiəlli yapışmalıdır

**Fransa və Ermənistanın 2022-ci ilin sonunda ekofəalların Laçın-Xankəndi yolundakı dinc etiraz aksiyasını bəhanə edərək ölkəmizə qarşı başlatdıqları növbəti anti-Azərbaycan kampaniyası iflasa uğramaqdadır.**



Paris və İrəvan dünya ictimaiyyətini çaşdırmağa çalışaraq məlum aksiyanı Xankəndidəki ermənilərin "blokada"ya alınması və "humanitar fəlakət" kimi təqdim etməyə çalışırdılar. Buna görə də xüsusi canfəşanlıqla BMT Təhlükəsizlik Şurasının (TŞ) iclasını da çağırmışdılar. Ən çox canfəşanlıq göstərən isə Fransa idi. Hazırda BMT-nin TŞ-yə sədrlik edən Fransa bu səlahiyyətindən sui-istifadə edərək Azərbaycanı ermənilərə qarşı "humanitar böhran" yaratmaqda ittiham edirdi. İstəyirdi ki, BMT xətti ilə Azərbaycana qarşı sanksiyalar tətbiq edilsin və "beynəlxalq sülhməramlı qüvvələr" adı altında bölgəyə Fransa hərbi kontingenti gətirilsin. Bununla da Cənubi Qafqazda Fransanın hərbi-siyasi varlığı təmin edilsin.

***"Makronun geosiyasi oyunları, hiyləgər gedişləri erməniləri xilas edə bilmədi"***

**Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov "Şərq"ə açıqlamasında bildirib ki, Fransa Prezidenti Emmanuel Makron məkrli geosiyasi məqsədlərinə nail olmaq üçün siyasi-psixoloji təzyiq "kart"larından istifadə etmək yolunu tutdu, lakin fiasko ilə üzləşdi. Partiya rəhbəri qeyd edib ki, Fransanın BMT TŞ-də Azərbaycan əleyhinə qətnaməni qəbul etdirə bilməməsi ədalətin qələbəsi sayılmalıdır:** "Bu həm də Makronun özünün bilavasitə məğlubiyyətidir. Daha doğrusu, rüsvayçı məğlubiyyətidir. Makron belə bir nəticəni bəlkə də heç gözləmirdi. Çünki o, özünə çox arxayın idi və Fransanın beynəlxalq nüfuzuna güvənirdi. BMT TŞ-nin rıçaqlarından istifadə etməklə Azərbaycana qarşı təşkil edilən bu proses birbaşa Fransa prezident administrasiyası və Makronun xarici siyasət üzrə müşavirləri tərəfindən yönləndirilirdi. Makron öz komandasının bütün diplomatik gücünü bu kampaniyaya həsr etmişdi. Təkəbbürlü Fransa lideri BMT TŞ-də məlum bəyannaməni qəbul etdirəcəyinə və növbəti mərhələdə onu qətnaməyə çevirə biləcəyinə nədənsə, çox əmin idi. Ancaq sonda Azərbaycanın mövqeyi, Azərbaycanı dəstəkləyən ölkələrin qətiyyəti qalib gəldi. İngiltərə, Rusiya, Birləşmiş Ərəb Əmirlikləri və Albaniya birmənalı surətdə Fransanın təşəbbüsünə qarşı çıxdı. ABŞ və Çin kimi dünya gücləri isə neytral mövqe tutdular ki, bu da Makron üçün arzuolunmaz hal idi. Özünü bütün Avropanın lideri hesab edən Makron rüsvayçı vəziyyətə düşdü və nəhayət anladı ki, artıq Fransanın mövqeyi heç kim üçün önəmli deyil. Bu hadisə Makron üçün əsl "soyuq duş" oldu.

Rəsmi İrəvan isə bu cür ağır diplomatik məğlubiyyət nəticəsində növbəti dəfə əzik duruma düşdü və Yeni ili məyus əhval-ruhiyyə ilə qarşıladı. Ermənistan rəhbərliyi başa düşməlidir ki, Makronun geosiyasi oyunları, hiyləgər gedişləri ermənilərin yox, Fransanın öz maraqlarına xidmət edir. Ermənilər gah bu, gah da digər havadara bel bağlayıb revanşa can atmaqdansa, real sülhə can atmalıdırlar. Onların xilası yalnız bundadır".

**İsmayıl Qocayev**



# Qərbi azərbaycanlıların siyahıya alınması davam edir

## Hələ ki, əsas diqqət 1988-1991-ci illərdəki deportasiyaya yönəldilib

**Ötən əsrdə Qərbi Azərbaycandan deportasiya edilən soydaşlarımızın siyahıya alınması prosesi ilk olaraq 1988-1991-ci illərdə həmin ərazilərdən çıxarılanlarla bağlı aparılır.**

Bu tarixdə deportasiya olunan soydaşlarımızın əksəriyyəti həyatdadır. Onların şəxsiyyət vəsiqələri (pasport), həmçinin Ermənistan SSR-də təhsil aldıqlarına dair, eləcə də mülkiyyətləri ilə bağlı sənədləri var.

Bunu Qərbi Azərbaycan İcmasının mətbuat katibi Ülviyyə Zülfiqar AZƏRTAC-a açıqlamasında söyləyib.

Ülviyyə Zülfiqar deyib: "Xronologiya baxımından sonuncu deportasiya (1988-1991-ci illər) yaxın vaxtda baş verdiyindən işimizin daha sürətli getməsi üçün prosesə həmin dövrdən başlamışıq. Həmin dövrdə azərbaycanlıların yaşadıqları 300 yaşayış məntəqəsindən 150-dən çoxunun əhalisi hazırda siyahıya alınıb və bu istiqamətdə iş davam etdirilir".

Mətbuat katibi bildirib ki, əlavə olaraq digər deportasiyalar (1905, 1918-1920, 1948-1953) zamanı ata-baba yurdlarından çıxarılan azərbaycanlılar da qeydiyyata alınır. Lakin hələ ki, əsas diqqət 1988-1991-ci illərdəki deportasiyaya yönəldilib. Bu proses yekunlaşandan sonra digər illərdə zərər görənlərin və onların varislərinin qeydiyyatı tam şəkildə aparılacaq.

# Mətbuat Şurası "Charlie Hebdo"nun təfriqəçi mövqeyini pisləyib

**Azərbaycan Mətbuat Şurası Fransanın "Charlie Hebdo" satirik jurnalının təfriqəçi mövqeyini pisləyib.**

**"Şərq"in xəbərinə görə, bu barədə MŞ-nin yaydığı bəyanatda bildirilib.**



Bəyanatda deyilir:

"Medianın xalqlar, dövlətlər arasında qarşıdurma, nifaq yaratması yolverilməzdir. Bu, jurnalist peşəsinə həssas yanaşmanın, etik prinsiplərə sadiqliyin başlıca meyarıdır. Belə məsələlərdəki həssaslıq, həmçinin, bəşəri dəyərlərin qorunması baxımından da müstəsna əhəmiyyət daşıyan ictimai missiyadır. Təəssüf ki, yaşadığımız dünyada qeyd etdiyimiz məqamları nəzərə almayan, özünün qızışdırıcı mövqeyi ilə seçilən, lokal maraq və mənafelərin əsiri olan, jurnalistikanı siyasi alətə çevirən media orqanları var. Onlardan biri də Fransanın "Charlie Hebdo" satirik dərgisidir.

"Charlie Hebdo"nun 2023-cü ildəki ilk sayında yayımlanmış "Pantürkizm yenə erməni meyitləri üzərində möhkəmlənmək istəyir" sərlövhəli yazıda yaşadığımız Cənubi Qafqaz regionundakı gərginliyi artırmaq, Azərbaycana və Türkiyəyə münasibətdə mənfi beynəlxalq ictimai rəy formalaşdırmaq istəkləri, aşkar şəkildə, özünü göstərməkdədir. Nəşrin yanaşması, eyni zamanda, bölgədə sülhün bərqərar olması naminə həyata keçirilən fəaliyyəti heçə saymaqdır.

"Charlie Hebdo" jurnalının Fransanın ermənipərəst dairələrinin mövqeyini əsas tutması, bu dairələrin regiondakı münaqişə ocağından yeni müharibə mühiti formalaşdırmaq istəklərinin ifadəçisi qismində çıxış etməsi, onun seçdiyi üslubdan da aydın görünməkdədir.

Ümumən İslam dünyasına münasibətdə əvvəllər də qərəzli, təfriqəçi, həqarət dolu baxışları ilə seçilmiş "Charlie Hebdo"nun qeyri-peşəkar təqdimat tərzini davam etdirməsi təəssüf doğurmaqdadır. İndiki halda nəşrin reallıqları və həqiqətləri nəzərə almaması, manipulyativ mahiyyət daşıyan dəst-xətti peşəkar jurnalistika prinsiplərinə meydan oxumaqdır.

O da təəssüf doğurur ki, ali dəyərləri təbliğ və təlqin etdiyini bildirən Fransada dərginin satira adı altında söz və ifadə azadlığından aşkar sui-istifadə cəhdlərinə qarşı zəruri ictimai reaksiya yoxdur, qanuni ölçü tədbiri görülmür.

Azərbaycan Mətbuat Şurası "Charlie Hebdo" satirik jurnalının təfriqəçi mövqeyini qətiyyətlə pisləyir. Şura Fransa hakimiyyətini, cəmiyyətini, həmçinin, bütövlükdə, Avropanın mütərəqqi ictimaiyyətini bu dərginin həm mənəvi, həm də hüquqi baxımdan yolverilməz sayılan fəaliyyət tərzinə biganə qalmamağa, belə meyillərə qarşı yerli qanunlarla və beynəlxalq hüquq normaları ilə müəyyənləşmiş qaydada tədbirlər həyata keçirilməsinə baxmağa çağırır".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi;**

# Ucqar kəndlərə və dağın döşünədək kabelləşmə aparılır

## Keyfiyyətli internet xidməti alan sakinlər sevinclərini bölüşüblər

**Azərbaycanda fiber-optik internet şəbəkəsi genişləndirilir. Ölkəmizdə fiber-optik internetlə təmin olunan ev təsərrüfatlarının sayı 650 minə çatıb. Bir müddət əvvəl Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən məlumat verilib ki, optik kabel texnologiyasının son trendi hesab edilən "GPON" ənənəvi mis kabel xətləri olmadan yüksəksürətli məlumat ötürülməsinə və hava şəraitindən asılı olmayaraq kəsintisiz xidmət göstərilməsinə imkan yaradır.**

Azərbaycanda bu texnologiya ilə fiber-optik şəbəkənin qurulması ilk dəfə 2017-ci ildə başlanılsa da, 2021-ci ildən etibarən daha geniş miqyasda tətbiq edilir. 2017-2020-ci illərdə qurulmuş fiber-optik şəbəkənin əhatə etdiyi ev təsərrüfatlarının sayı 227 min olub. Ancaq təkcə 2021-2022-ci il ərzində 422 min ev təsərrüfatı üçün fiber-optik şəbəkə qurulub. Qeyd edək ki, ölkə ərazisində GPON texnologiyası əsasında sürətli və kəsintisiz fiber-optik şəbəkənin qurulması "Onlayn Azərbaycan" layihəsi çərçivəsində həyata keçirilir. Bu layihənin əsas məqsədi dövlət-özəl tərəfdaşlıq modeli əsasında bir neçə telekommunikasiya operatorunun birgə səyləri nəticəsində 2024-cü ilin sonuna qədər minimum 25 Mbit/s internet sürəti ilə bütün ölkəni əhatə edən genişzolaqlı şəbəkə qurmaqdan ibarətdir. Layihənin əsas operatoru olan "Aztelekom" MMC telekommunikasiya infrastrukturunun yenilənməsi və müasir beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində işləri həyata keçirir. Hazırda Bakı, Abşeron, Şəmkir, Cəlilabad, Tovuz, Qazax daxil olmaqla, 60 rayon və şəhərdə GPON və digər genişzolaqlı texnologiyalarla sürətli internetin təmin edilməsi davam etdirilir. Regionlarda görülən işlərin tərkib hissəsi olaraq, işğaldan azad olunmuş ərazilərdə öz dədə-baba yurdlarına qayıdan vətəndaşlarımız üçün sabit telefon şəbəkəsi və sürətli internet xidməti təmin edilir. Bununla yanaşı, əhali təchiz edilmiş sürətli internet vasitəsilə artıq ən ucqar kəndlərdə də rəqəmsal imkanlardan yararlana bilir. İndi məktəblilər Lahıc, Xınalıq kimi ucqar dağ kəndlərində belə asanlıqla fiber-optik internetlə onlayn təhsil almaq imkanı əldə ediblər. Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov jurnalistlərə açıqlamasında deyib ki, 2024-cü ilin sonunadək Azərbaycanda 100 faiz optik internet şəbəkəsi qurulacaq. Fiber-optik şəbəkənin çəkilməsi insanların daha sürətli, daha keyfiyyətli və daha sərfəli internet xidmətlərindən istifadə etməsinə imkan yaradır. Çünki bu texnologiya məhdudiyyət tanımır. Fiber-optik şəbəkə vasitəsilə ötürülən informasiyanın həcmi digər şəbəkələrə nisbətən qat-qat yüksəkdir. Fiber-optik şəbəkə vasitəsilə təmin olunan internetdə sürət itkisi də olmur. Məlumatın ötürülmə sürəti hava şəraiti və ya telefon xətti kimi amillərdən asılı olmur. Bu da yüksək keyfiyyətli xidmət göstərilməsini təmin edir.



**"Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz deyib ki, o, Balakəndə fiber-optik internet şəbəkəsinin tikintisi ilə maraqlanıb. Ekspert bildirib ki, hazırda Mahamalar kəndində, dağın ətəyindəki evlərə internet xətti çəkilir:** "Kənddə bir briqada (5-6 nəfər) işləyir. Ümumiyyətlə, fiber-optik şəbəkənin qurulması və sonda internet əldə edilməsi işi bir neçə hissədən ibarətdir. Bu, layihələndirmə, kabelləşmə və evdə fiber-optik modemin quraşdırılmasıdır. Mənim tanış olduğum briqada rəisi işlərin yaxşı getdiyini, əvvəlki vaxtlara nisbətən zəruri materialların yetərincə olduğunu bildirdi. Briqada üzvləri arasında 20 il bu işlə məşğul olanlarla yanaşı, gənclər də vardı. Türk və Çin istehsalı olan optik kabellərdən istifadə edilirdi. İşlərin sürətlənməsi üçün çatışmayan yalnız əlavə işçi qüvvəsi, əlavə briqadaların olmamasıdır. Briqada bir günə adətən şəraitdən asılı olaraq 1-3 km. kabel çəkə bilir. Kənd yerində kabelləşmədə əsas çətinlik həyətyanı sahələrdə olan ağacların maneçilik yaratmasıdır. Bəzən bu ağacların kəsilməsi lazım gəlir ki, bu problemi də bələdiyyə sədri ilə birgə həll edirlər. Briqada rəisi hətta layihəyə düşməyən, lakin yaşayış olan ərazinin, hətta dağlıq hissədə olsa belə, kabelləşməsinə tapşırıq verildiyini qeyd etdi. Hətta dağın döşünədək kabelləşmə apardıqlarını bildirdilər".

**O.Gündüz vurğulayıb ki, kabelləşmə aparılarkən gələcəkdə yeni evlərin tikiləcəyi də nəzərdə tutulub:** "Kabelin tutumu (optik liflərin sayı) indi lazım olandan da çox nəzərdə tutulub. İşlər sürətli getsə də, hiss olunurdu ki, yeni briqadalara ehtiyac var. Ötən ildən başlanmasına baxmayaraq, Balakənin heç yarısı kabelləşməyib. İndi rayona, Qullar kəndinə əlavə briqadaların gələcəyi bildirildi. Beləliklə, bu kabelləşən ərazidə ən yaxın vaxtda, digər bir briqada - montajçılar tərəfindən splitterin quraşdırılması və başqa bir komanda, rayon telekommunikasiya qovşağının əməkdaşları tərəfindən evlərin internetə qoşulacağı gözlənilir. Əgər kimsə əvvəldən ADSL istifadəçisidirsə, onun üçün hər şey pulsuzdur. Yeni müştəri olarsa, çəkiliş xərcindən başqa ödəniş nəzərdə tutulmur. Rayonun başqa bir kəndində, Qasbinədə bütün işlər görülüb, splitterlər quraşdırılıb və hazırda əhaliyə internet xidməti təklif olunur. Abunəçilər yüksəksürətli (30 mbit/s-dən 100 mbit/s-dək) internet paketlər seçə bilərlər. İnternet xidmətinin haqqı isə seçilmiş tarifdən və müştəri tələbatından asılı olaraq 18 AZN-dən 56 AZN-dək dəyişir. Ümumiyyətlə, diqqətimi cəlb etdi ki, keyfiyyətli internet xidməti alan sakinlər çox sevinirdilər. Soyuq havaya baxmayaraq, briqada tərəfindən görülən işlər yetərincə sürətli və keyfiyyətlidir. Zəruri materiallar da yetərincədir. Lakin yeni işçi qüvvəsinə, yeni briqadalara ehtiyac var. Belə gedişatla bir rayonun kabelləşməsinin və internetə qoşulmasının heç şübhəsiz çox vaxt aparacağı şübhəsizdir".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

## Rusiya bölgədən sıxışdırılır

### ABŞ Cənubi Qafqazdakı proseslərə daxil olacaq



**Yaxın günlərdə ABŞ-nin dövlət katibi Entoni Blinkenlə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov arasında telefon danışığı baş tuta bilər.**

Bu barədə ABŞ Dövlət Departamentinin sözçüsü Ned Prays brifinq zamanı deyib. O qeyd edib ki, A.Blinken Ermənistan və Azərbaycandan olan həmkarlarının rəhbərlərini bir araya gətirməklə, onlarla müntəzəm söhbət etməklə Azərbaycan-Ermənistan məsələsinə verdiyi öz şəxsi töhfəsini nümayiş etdirir. "Düşünürəm ki, yaxın günlərdə onun Ermənistan və Azərbaycandakı həmkarları ilə yenidən telefonla danışmaq imkanı olacaq", - deyə Prays bildirib.

**ABŞ-nin Azərbaycanla artan təması "Şərq"ə dəyərləndirən siyasi şərhçi Turab Rzayev bildirib ki, Amerika Rusiyanın regionda yenidən güclənməsini istəmir:** "ABŞ dəfələrlə Rusiyanın Qafqazda, keçmiş MDB məkanında yeganə qərarverici olmasını qəbul etmir.

Mart ayından bəri dəfələrlə ABŞ rəhbərliyi səviyyəsində Azərbaycanla görüşlər keçirilib, əlaqə saxlanılıb. Ermənistana da ABŞ-nin, Böyük Britaniyanın kəşfiyyat idarəsi rəhbərlərinin səfəri olub. ABŞ və Böyük Britaniya regionda Rusiyanı sıxışdırıb çıxartmaq istəyirlər. Amerika Qarabağ mövzusunda Avropa İttifaqının mövqeyini dəstəkləyir, birbaşa müdaxilə etməməyə çalışır. Əgər prosesdə kifayət qədər gecikmələr baş verərsə, Rusiya bölgədə gücünü artırmaq üçün səy göstərərsə, rəsmi Vaşinqton da aktiv şəkildə Cənubi Qafqazdakı proseslərə daxil olacaq".

**Sücayət Mehti**

## Ermənistanı məcbur etməliyik

### "Bu da hərbi gücün istifadəsindən keçir"

**Ermənistan Xarici İşlər Nazirliyinin (XİN) Laçın yolunda etirazlar ilə əlaqədar 3 yanvar 2023-cü il tarixli növbəti bəyanatı tamamilə əsassızdır.**



Bu bəyanat beynəlxalq tərəfdaşlar arasında məsələ ilə bağlı çaşqınlıq yaratmaq və vəziyyəti süni gərginləşdirmək məqsədi daşıyır". Bu barədə Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin Ermənistan Xarici İşlər Nazirliyinin 3 yanvar 2023-cü il tarixli bəyanatına dair şərhində bildirilib.

Azərbaycan XİN-i Ermənistanı siyasi və hərbi təxribatları dayandırmağa çağırıb.

**Ermənistan tərəfinin hər zaman təxribat törətdiyini deyən hərbi-siyasi ekspert Həşim Səhrablı "Şərq"ə söyləyib ki, onların əməlləri təkcə diplomatik müstəvi ilə də yekunlaşmır:** "Rəsmi İrəvanın təxribatlarındakı əsas məqsəd, Ermənistan tərəfinin 2020-ci il savaşında məğlub olması və Azərbaycanın dünya siyasətində nüfuzunun getdikcə artması qorxusudur. Onlar ehtiyat edərək Cənubi Qafqazdakı prosesləri uzatmağı hədəfləyirlər. Çünki indiki məqamda sülhün imzalanması və beynəlxalq səviyyəli layihələr birbaşa Azərbaycanın diktəsi ilə həyata keçiriləcək. Bu isə Ermənistanın milli maraqlarını sıradan çıxara bilər. Bu səbəblə də rəsmi İrəvan prosesləri maksimum dərəcədə uzatmağı düşünür. Uzun müddətdə heç kim nələrin baş verəcəyini bilmədiyi üçün onların Azərbaycana qarşı koalisiya yarada bilmək ümidləri var".

**Analitik əlavə edib ki, Ermənistanın çağırışlarımızı diqqətə alması üçün onları məcbur etməliyik:** "Bu məcburiyyət hərbi gücün istifadəsindən keçir. Rəsmi Bakının atdığı son addımlar da belə bir məqsədin mövcudluğundan xəbər verir. Bu o demək deyil ki, Azərbaycan genişmiqyaslı əməliyyatlara başlayacaq. Amma istənilən halda güc nümayiş etdirməklə, istədiyimiz nailiyyətləri əldə etməyi nəzərdən keçirməliyik. Ümumiyyətlə, 2023-cü ildə bir sıra ciddi dəyişikliklərlə qarşılaşacağıq. Bu dəyişikliklər Cənubi Qafqazda da baş verə bilər".

**Nihat Müzəffər**

# Daha o zaman deyil

## "Kişinin, babanın sözü keçməlidir" kimi fikirlər doğru yanaşma deyil

***Uşağa ad qoymaq üstündə ailələrdə yaşanan narazılığa səbəb qısqanclıqdır***



***Sosioloq: "Ananın uşağın üzərində çox böyük haqqı var. Ad seçimində mütləq onun də razılığı olmalıdır"***

**"Gənc ailənin qızı doğulub, ərin atası uşağa öz anasının adını qoymaq istədiyi üçün arvad dəmarş edərək durub gəlib valideynlərinin evinə. Ailə Məcəlləsinin 53.4-cü maddəsinə əsasən, valideynlər arasında uşağın ad və soyadına münasibətdə razılıq olmadıqda yaranan fikir ayrılığı yerli icra hakimiyyətinin qəyyumluq və himayə orqanı tərəfindən həll olunur. Təbii, o da həll edə bilməsə, işə məhkəmə baxacaq".**

Bu fikirləri şəxsi feysbuk hesabında hüquqşünas Əkrəm Həsənov paylaşıb. O qeyd edib ki, həmişə maraqlı idi ki, belə işlərə baxan dövlət orqanı məsələni necə həll edəcək. Axı hansı meyarı rəhbər tutub, ad qoyacaq? Kimin sözü onun üçün daha keçərli olacaq? Dədə Qorqud deyil ki, istədiyi adı qoyub tərəfləri razı salsın: "Əslində, bu problem bir daha göstərir ki, ailədə heç vaxt bərabərlik ola bilməz. Bir nəfərin sözü həlledici olmalıdır. Təbii ki, ərin! Bu, o demək deyil ki, müzakirə olmamalıdır. Olmalıdır. Amma son söz ərdə olmalıdır. İndi görün, nə günə qalmışıq ki, kişi uşağının adını belə qoya bilmir. Kimdir günahkar?".

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən sosioloq, professor Əhməd Qəşəmoğlu isə deyib ki, əksər ailələrdə adla bağlı bu cür mübahisələr yaşanır. Ərin bir ad, nənə bir ad bəyənir, baba başqa bir ad qoymaq istəyir deyə ailədə ziddiyyət yaranır. O vaxtları belə bir hadisənin zamanında onun da başına gəldiyini deyib. Professor qızına ad qoyduğu zamanı həyat yoldaşının ailəsi ilə sözü çəpləşib:** "Qızım dünyaya gələndə adını mən qoydum. Qayınanam isə başqa bir ad qoymaq istəyirdi deyə, mən seçdiyim ada narazılıq etdi. Halbuki o özü qızıma sentimental və mənasız bir ad qoymaq istəyirdi, razı olmadım. Ad mənasını ona izah etdim və məsələni problemsiz həll etdim.

Uşağa ad qoymaq üstündə ailələrdə yaşanan narazılığa səbəb qısqanclıqdır. Oğlanın ailəsi istəyir ad seçimini özü seçsin, qız tərəfi də istəyir onlar seçsin.

Əslində mən bu məsələdə kişinin, babanın sözü keçməlidir kimi fikirləri doğru hesab etmirəm. Ananın uşağın üzərində çox böyük haqqı var. Ad seçimində mütləq onun da razılığı olmalıdır. Ananı qıcıqlandıran bir adın uşağa verilməsi yaxşı deyil. Mümkündür ki, ana eyni adlı birini sevməsin, onunla arasında nəsə bir ədavəti olsun, bu, istənilən mənada ananın öz uşağına qarşı münasibətinə mənfi təsir edə bilər".

*Ə.Qəşəmoğlu hesab edir ki, uşağa ad seçimi ilə bağlı cüzi də olsa bir fikir ayrılığı varsa, mütləq məsələ müzakirəyə çıxarılmalıdır. Ya ailənin, nəslin ağsaqqal, ağbirçəkləri prosesə cəlb olunmalı, öz təcrübələrini bölüşüb, tövsiyələrini edə, hansı tərəfin seçdiyi adın daha yaxşı olduğunu deyə bilər. Ya da ki hər zaman təklif etdiyim kimi sosial iş xidmətləri yaradılmalıdır:* "Heç bir halda bu məsələ boşanmaya səbəb olacaq səviyyədə böyüməməlidir. Hər halda tərəflər razılığa gələ bilmirsə, ağsaqqal, ağbirçəklərlə məsləhətləşib, təcrübəli adamların tövsiyələrinə qulaq assınlar. Yaxşı olar ki, bu məsələ ilə məşğul olan sosial bir qurum olmalıdır. Dövlət qurumu olması şərt deyil. Qeyri Hökumət Təşkilatlarının iştirakı ilə də bu məsələ tənzimlənə bilər. Eyni zamanda Mediasiya Şurasının üzvləri də bu məsələdə valideynlərə öz tövsiyələrini verə, ailələrə ad seçiminin əhəmiyyətini izah edə bilər. Hesab edirəm ki, ziddiyyətli ailələrdə ad seçimində sosial işçilərin iştirakının müsbət təsiri olar. Televiziyalarda və digər media resurslarında adların insan taleyində rolu barədə maarifləndirici proqramlar, yazılar verilməlidir.

"Qurani-Kərim"də də belə kəlmə var ki, uşaq anadan olanda valideynin ilk işi ona gözəl ad seçməkdir. Ad seçərkən Quranı oxuyun deyəndə bəziləri kitabı açıb fərqinə varmadan şeytan, cin adı da qoyurlar . Gözəl ad dedikdə nəzərdə tutulan insanda gözəl təəssürat yaratmasıdır. Körpə uşağın beyni sürətlə sistemləşir. Bu ad sistemin içərisində rol oynayır. Azərbaycan adlarının çoxu islam dinindən gəlir və türk mənşəli adlar Azərbaycanda üstünlük təşkil edir. Adlar insanların milli şüuruna dərk olunur. Buna görə bəzi adları eşitdikdə insanda öhdəçilik yaranır. Adın insana yüklədiyi vəzifə də var. Gözəl ad ömür boyu insanı müsbət düşüncələrə kökləyir. Uşağa sıxıntı, utancaqlıq gətirən ad, yaxud həm oğlanlara, həm də qızlara qoyulan bəzi ortaq adlar hər zaman gərginlik yaradır.

O vaxtları tələbələrimdən birinin adı Canan idi. Mən semestr boyu o qızın adını çəkə bilmədim. Gah soyadı, gah da doğulduğu rayonun adı ilə səsləndirdim. Uşağa necə deyəsən ki, "Canan, gəl çıx lövhəyə"?. Axı valideynlər niyə başa düşmürlər ki, qızın adını Canan qoymaq düz deyil. Kənardan kimsə onu səsləyəndə, bu heç də xoş görünmür. Belə hallar yolverilməzdir. Çünki bu cür neqativ adlar gələcəkdə həm uşaq, həm də cəmiyyətin özü üçün pis göstəricidir.

"Valeologiya" elmi də uşağa qoyulan adın, onun xarakterinə davranışına təsir etdiyini sübut edir. Uşaq öz adını eşitdikcə fərəhlənməli, özünə inam hiss etməlidir. İnsanı utandıran, özgüvənini aşağı salan adları kim təklif edir etsin, uşağa vermək düzgün deyil".

Konkret hadisəyə toxunan sosioloq deyib ki, çox güman uşağın anası köhnə ad olduğu üçün "Xeyransa"nı bəyənmir. Bəlkə də heç mənasını bilmir. Xeyransa adı köhnə olsa da pis ad deyil. Sadəcə olaraq ailə bir yerdə oturub öz fikrini əsaslandırmalı, həmin adın mənasını izah etməlidir. Bəlkə də mənasını bilsə, ana da etiraz etməz. Amma görünür, ailə üçün adın mənası önəmli deyil. Burada artıq məsələ evdə kişinin sözünün qeydşərtsiz qəbul olunmasıdır.

**Şəymən**

# Gənclər bilik yolunda ayaqyalındırlar

## Ona görə Üzeyir bəyin heykəlinə ayaqqabı atırlar



**Dahi bəstəkar Üzeyir Hacıbəylinin Bakıdakı heykəlinin üzərinə ayaqqabı atan iki gəncin hərəkəti sosial şəbəkələrdə qınaq obyekti olub.**

**Hadisəni pisləyən ictimaiyyət nümayəndələri günahkarların tezliklə tapılıb cəzalandırılmasını tələb edirlər.**

Gənclərin hansı səbəbdən bu hərəkəti etdiyi məlum olmasa da, ictimaiyyət nümayəndələrinin fikrincə, o ayaqqabı adi bir daş heykələ yox, Azərbaycan mədəniyyətinə, Azərbaycan kimliyinə atılıb. Bu kimi tərbiyəsizlik ən azı ictimai qınaqla üzləşməlidir.

Bir qrup şəxsə görə gənclərin şəxsiyyəti müəyyən edilərək həbs olunmalı, əgər təhsil alırlarsa təhsil ocağından qovulmalı, tiktok və bütün məşhur sosial şəbəkələrdə biabır edilməlidir. Elə bir müddətə həbs edilməlidirlər ki, heç bir zaman arayış alıb işə qəbul ola bilməsinlər. Ancaq o zaman Üzeyir Hacıbəylinin kim olduğunu dərk edəcəklər.

Bir çoxları isə hesab edir ki, dünyasını dəyişmiş biri üçün,dünyaya təzə göz açan birinin həbsini istəmək ədalətli deyil.

**Millət vəkili Etibar Əliyev isə hesab edir ki, bütün dahilərin həyatı gənclərə öyrədilməlidir. Bunu öyrətməyə borclu olanlar özlərindən danışırlar:** ”Gənclər bilik yollarında ayaqyalındırlar. Məktəb və universitetlərin bilik və tərbiyə verməyə gücü çatmır. Nəsillər arasındakı uçurumu gördünüzmü? Görsənməyən uçurumu! Heykəlin qarşısına gül qoyan nəsil yetişməlidir. Universitetlərin qarşısında durub bir anlıq gənclərin davranışlarına diqqət edin. Yaxınlaşıb söhbətlərini də dinləyin... Dəftərsiz, kitabsız, çantasız, telefonlu gənclik”.

**Yazar Şərif Ağayarın fikrincə, Üzeyir bəyin heykəlinə ayaqqabı atılmasını böyük problemə çevirmək lazım deyil.** Ayaqqabı zarafatla atılıbsa, sadə bir nəzakətsizlikdir. Mədəni şəkildə başa salmaqla məsələni bitmiş saymaq olar: ”Daha ciddi problemlərə diqqət etmək lazımdır. Üzeyir bəy sağ olsa, bu hadisə onu heç 8-ci dərəcəli iş kimi də maraqlandırmazdı. Gənclikdən şikayət etmək asandır, lakin bir balaca dərinə gedəndə zurna fırt eləyir. Oxuyan, kitabla tərbiyə olunan adamların aqibətini görüb, haqlı olaraq həvəsdən düşürlər. Problem gənclikdə deyil. Nəticələrlə mübarizə aparmaq nəticə verməz. Səbəblərə baxmaq lazımdır. Bu məmləkətdə şəxsən mən gənclərə ağıl verməyə utanıram”.

**Şair Aqşin Yenisey isə ”Şərq”ə açıqlamasında deyib ki, ictimai qınağın özü də cəzalandırma formasıdır.** Əsas niyyətə baxmaq lazımdır, o gənclərin niyyəti Üzeyir Hacıbəylinin heykəlini aşağılamaq olubsa hansısa cəzadan danışmaq olar. Amma niyyət o deyilsə, istənilən cəzalandırma cəmiyyətin barbar mahiyyətini ifşa edər:

”Sosial şəbəkələrdə hamı hakimiyyəti günahlandırır ki, Üzeyir Hacıbəylinin heykəlinə ayaqqabı atan gəncliyi mövcud hakimiyyət formalaşdırıb. Mövcud müxalifətin heçmi günahı yoxdur? Guya, müxalifət düşərgəsi gecə-gündüz Karl Popperin kitablarının müzakirəsini keçirirmiş, xəbərimiz olmayıb”.

*A.Yenisey bildirib ki, ölkədə hər il kitab sərgiləri, cürbəcür mədəni tədbirlər olur:* ”Yaxşı, deyək ki, mədəniyyətin inkişafı hakimiyyəti maraqlandırmır, axı bu tədbirlərdə müxalif simalara da rast gəlmək çox nadir hadisədir. Axı mədəniyyətin inkişafı müxalifətə də sərf etmir. Cəmiyyət mədəniləşdikcə sıralar seyrəlir axı. Mübarizə, inkişaf anlayışını yalnız siyasi düşərgənin maraqları ilə məhdudlaşdırmaqla hansı mədəni, intellektual gənclikdən, hansı böyük gələcəkdən danışmaq olar?”.

**Tanınmış jurnalist Jalə Mütəllimovanın fikrincə, aqressiyanı aqressiya yox, sevgi azaldır:**

- Sevgi, söhbət, anlatmaq, bu, gəlirsiz ideoloji işdir. Amma ən böyük gəlir, kapital məhz o olanda gəlir, insan yetişir. Mənəviyyatlı, intellektli, yaxşı vətəndaş və gələcəyin qarantiyası olan insan. Odur ki, hər kəs dövlətə ”ağıllı” məsləhət verməkdənsə, bir İNSAN yetişdirsin, bir insana səhvini sevgi ilə anlatsın, bir insana doğruları başa salsın. Yoxsa hər kəsi qolundan tutub qanun qarşısına, müttəhim kürsüsünə çıxarıb, haqqında ən ağır fərmanlar verməyə nə var ki?!.

Üzeyir bəyin heykəlinə ayaqqabı atan uşaqlardan əl çəkmir adamlar. Məncə, Üzeyir bəy sağ olsaydı, o ayaqqabını yerdən götürər, o gəncə çevrilər və deyərdi ki, oğlum, gəl geyin ayağını, sənə soyuq olar, bir də belə eləmə. Və çevrilib daha qlobal işlərin dalıyca gedərdi. Məsələn, düşünərdi ki, milli dəyərləri bilməyib yetişən belə gəncləri, dəyərli insan kapitalına necə çevirmək olar?..

**Şəymən**



## Qış depressiyasından qorunmaq olar

Harvard Universitetinin professoru açıqladı

*(Əvvəli səh: 8-də)*

**”Öz sağlamlığım üçün mən şəxsən 20 ildən artıqdır ki, aşağı karbohidratlı keto pəhrizinə əməl etmişəm və 15 ildən artıqdır ki, xəstələrlə, xüsusən də arıqlamaq üçün tövsiyə edirəm. Onun antipsikotik təsirləri və xəstələrdə əhval-ruhiyyəyə faydaları olduğunu aşkar etdim.**

Buna görə də psixiatriyada ketogenik pəhrizin klinik istifadəsinə rəhbərlik edirəm”.

Mütəxəssislər Günəşin azad və təbii antidepresan olduğunu bildirirlər.

2017-ci ildə Cefri Hall, Maykl Robaş və Maykl Yanq dünyada hər kəs üçün sirkadiyalı ritmə nəzarət edən molekulyar mexanizmləri kəşf etdikləri üçün tibb üzrə Nobel mükafatını qazandılar.

Nobel mükafatı laureatının araşdırmasına görə, insan beynində supraxiazmatik nüvə adlı bir saat var ki, bu da onların gündəlik davranışlarının və bədən funksiyalarının Günəşə uyğun işləməsini təmin edir.

Beynin ön hipotalamusunda yerləşən supraxiazmatik nüvə sirkadiyalı ritmə nəzarət edir. Supraxiazmatik nüvə 24 saatlıq bioloji, fizioloji və sosial davranışların sinxronizasiyasını diqqətdə saxlayır.

Buna görə də tədqiqatçılar insanların bütün gününü ekranlara baxmaqdansa, mümkün qədər çox günəş işığı almağa sərf etməyi təklif edirlər.

ABŞ-də İnsan Yaradılışının Kvant mexanikasının genetik mərkəzindən Corne Hunt, ”Gün ərzində müəyyən bir müddət günəş işığına məruz qalmaq insan sağlamlığı üçün çox vacibdir. Günəş işığı serotonin və melatonin səviyyələrini tənzimləyərək sirkadiyalı ritmi təyin edir, eyni zamanda ümumi sağlamlıq üçün vacib bir komponent olan D vitamini istehsal edir. Kifayət qədər günəş işığı almayanlarda xəstəliklər daha çox olur”, - deyə bildirib.

CDC-yə görə, fiziki fəaliyyət kofein və ya şəkərin köməyi olmadan gün ərzində enerjili qalmağın ən yaxşı yollarından biridir.

Harvard Universitetinin Blavatnik İnstitutunun tədqiqatçıları həm oruc tutmağın, həm də güclü idmanın hüceyrələrə təsirini təhlil ediblər.

Hər iki metabolik müdaxilənin alzheimer və parkinson kimi neyrodegenerativ xəstəliklərə səbəb ola biləcək zülalların xaric edilməsini asanlaşdırdığı sübut edilib.

**Turan**

# Bu nə xəstəlikdirsə, çıxıb getmək bilmir

## Vəziyyət koronavirusa “şükür” dedirdəcək həddə çatıb

**Pediatr Vaqif Qarayev:**
”Ən çox narazılıq yaradan qızdırmanın aqressivliyi və dərmana tabe olmamasıdır”

**Həkim-infeksionist Mərdan Əliyev:**
”Aparılan analizlərin heç birində koronavirus müəyyən edilməyib. Təəssüf ki, virusun qripin hansı ştammı olduğunu müəyyənləşdirmək hazırda mümkün deyil”



**Xəstələnənlərin sayının getdikcə artması əhali arasında müxtəlif şayiələr yaradıb. Hazırkı xəstəliyi koronavirusun yeni dalğası, ”donuz qripi” ilə koronavirusun qarışığı, hətta ”elmə hələ məlum olmayan virus” da adlandırırlar. Səbəb isə sadədir. Birincisi, ölkədə hazırda tüğyan edən qripəoxşar xəstəlik barədə rəsmi orqanların dəqiq açıqlama verməməsi, xəstəliyin konkret adlandırılmamasıdır. İkinci səbəb isə əhali nöqteyi-nəzərindən daha ağlabatan görünür.**

Bu da xəstəliyin ağır və uzunmüddətli gedişatı, sağalma ərəfəsində yenidən yoluxmaq, əvvəlki vəziyyətə qayıdış, eyni simptomların gah aradan qalxıb, gah da təkrar özünü göstərməsi. Əhali məhz buna görə ”bu nə xəstəlikdirsə, çıxıb getmək bilmir, gedib qayıdır”, deyir. Vəziyyət koronavirusa ”şükür” dedirdəcək həddə çatıb. Naməlum vəziyyət yaxşı deyil. Çünki müalicə üsulu tapılmır. Sosial şəbəkələrdə hamı bir-birinə məsləhət verir, müxtəlif dərmanların adları sadalanır. Həkimlərin bildirdiyinə görə, hazırda dolaşan xəstəlik mövsümi qripdir. Onun ağır gedişatlı olmasınınsa bir çox səbəbləri vardır. Pediatr Vaqif Qarayev sosial şəbəkədə paylaşdığı statusda əhalini ehtiyatlı olmağa çağırıb, xüsusən azyaşlılarla münasibətdə ehtiyatı əldən verməməyi tövsiyə edib:

- İsti hava Avropanın bir çox ölkələrində müşahidə olunur, viruslar da hər yerə yayılıb. İndiki xəstəliklər müxtəlif variasiyalarda gedir: yüksək qızdırma, qızdırma, üstəgəl, boğaz ağrısı, qızdırma-öskürək-burun tıxanıqlığı, qızdırma-qusma-ishal. Ümumi infeksion əlamətlər də öz yerində. Ən çox narazılıq yaradan qızdırmanın aqressivliyi və dərmana tabe olmamasıdı. Dərmanların keyfiyyəti ilə bağlı iradlarla razılaşmaq olar. Amma dərman qəbulundan sonra qızdırmanın normaya düşməsinə çalışmayın, bu heç lazım da deyil. Uşaqlarda qızdırma üç gündən artıq davam edərsə, mütləq müayinə olunmalıdırlar. Özbaşına antibiotik qəbulu vəziyyəti ağırlaşdıra bilər. Üç yaşına qədər uşaqlarda qusma və ishal varsa, ilk gündən mütləq həkim nəzarətində olmalıdılar. Xalq təbabətindən istifadə qadağan deyil. Hamımızı nənə-babalarımız belə böyüdüb. Amma təhlükəli məqamları qeyd etdim. Çox vaxt həkimsiz keçinmək olmur. Ənənəvi təhlükə yenə də qalır - xəstə uşaqların kollektivə getməsi! Valideynləri narahat edən məsələlərdən biri də uşaqların sağalandan sonra təkrar yoluxmasıdır. Kollektivə gedən uşaq sağalandan sonra təkrar başqa virusla yoluxur. Çalışın, xəstələnməyin!

**Həkim-infeksionist Mərdan Əliyev ”Şərq”ə açıqlamasında hazırda yayılan xəstəliyin mövsümi qrip ehtimalının daha yüksək olduğunu bildirdi:**

- Xəstəliyin yayılması ötən il dekabrın əvvəlindən başlayıb. Xəstəliyin əlamətləri əsasən halsızlıq, baş ağrısı, qızdırma, öskürək, oynaq ağrıları, iştahsızlıq və bir də kəskin bronxitlə müşahidə olunmasıdır. Amma bu, koronavirus deyil. Çünki aparılan analizlərin heç birində koronavirus müəyyən edilməyib. Təəssüf ki, virusun qripin hansı ştammı olduğunu müəyyənləşdirmək hazırda mümkün deyil. Dövlət tibb müəssisələrində bunu müəyyənləşdirə biləcək avadanlıqlar, testlər yoxdur. Paytaxtda 1-2 özəl klinikada bu mümkündür, həkimlərsə analizlərin bahalığı səbəbindən pasiyentləri bu klinikalara göndərə bilmir. Məlumdur ki, yuxarı tənəffüs yolları xəstəlikləri respirator xəstəliklər adlanır. Mövsümi qrip virusları da respirator xəstəliklərə aiddir. Amma mövsümi infeksiyaların da 200-ə yaxın növü mövcuddur. Bunların ən ağırı qripdir. Qripin də adenovirus, paraqrip və sair növləri var. Hesab edirəm ki, hazırda əhali arasında yayılan xəstəlik paraqrip ola bilər. Sadəcə, bu virusları müəyyən etmək mümkün deyil deyə, əlamətlərə görə ehtimal irəli sürülür.

*Xəstəliyin ağır gedişatlı olmasına gəlincə, M.Əliyev bunu virusun xüsusiyyəti ilə izah etdi:*

- Xəstəliyin gedişatı virusun xəstəlik törətmə qabiliyyətindən, virusun xüsusiyyətindən asılıdır. Müraciət edən pasiyentlərin qarşılaşdığı xəstəlik əlamətlərinə əsasən deyə bilərəm ki, hazırkı xəstəlik tanıdığımız, bildiyimiz qrip virusudur. Bu əlamətlər uşaq vaxtı keçirdiyimiz xəstəliklərlə demək olar eynidir. Bəzi insanlarda qrip virusu üşütmə, qızdırma, yüksək hərarətlə özünü göstərir. Əhali bilməlidir ki, qızdırma orqanizmin virusa verdiyi reaksiyadır. Bununla orqanizm virusu qəbul edib, onu tanıyır. Orqanizmin virusu tanıması isə xəstəliyə qalib gələcəyi deməkdir. Koronavirus niyə ölüm hallarına, ağırlaşmalara səbəb olurdu, çünki orqanizm o virusu tanımırdı, onunla mübarizə aparmaqda çətinlik çəkirdi. Hərarət yüksəlibsə, dərhal onu aşağı salmağa çalışmaq lazım deyil. Doğrudur, kiçikyaşlı uşaqlar üçün bu mərhələ çətin olur, ağır keçirirlər. Uşaqlarla böyüklərə bu məsələdə yanaşma fərqli olmalıdır. Antibiotik dərmanlara üstünlük vermək lazım deyil. Antibiotiklər xəstənin vəziyyətini ağırlaşdırır. Bədəni vitaminlərlə də çox yükləmək olmaz. Dərman preparatlarına minimal yanaşmaq lazımdır. Təbii müalicə üsulları daha effektivdir, çünki orqanizmi yormur, müqavimətini zəiflətmir.

**Məlahət Rzayeva**

## "Səs Azərbaycan" başlayır




**”Səs Azərbaycan” yeni mövsümü sabahdan etibarən yayıma başlayır.**

İTV-də yayımlanacaq musiqi yarışması 21:30-da efirə gedəcək.

Yarışmada bir çox dəyişikliklər edilib. Belə ki, ilk növbədə ad dəyişdirilərək ”Səs Azərbaycan: Doğma nəğmələr” edilib. Eyni zamanda münsif heyəti də tamamilə dəyişdirilib.

Əvvəl dörd olsa da, bu dəfə 3 münsif yarışmaçıları seçəcək. Onlar isə Xalq artisti Gülyaz Məmmədova, müğənni İlqar Xəyal və aşıq Samirə Əliyevadır.

Müsabiqədə Azərbaycan mahnıları səsləndiriləcək. Proqramın aparıcılığını Azər Süleymanov edəcək.

*Qeyd edək ki, bundan əvvəl ”Səs Azərbaycan”da yarışmaçıların əcnəbi mahnı oxuması tənqid edilmişdi. Hətta münsif kürsüsündə oturan Xalq artisti Brilliant Dadaşova buna dəfələrlə irad bildirmişdi. Dadaşova ilə yanaşı Xalq artisti Tünzalə Ağayeva, müğənnilər Murad Arif və Eldar Qasımov da münsif kürsüsündə oturub.*

## Doğuş analizlərin cavabını gözləyir

Özünü müğəninin oğlu kimi təqdim edən gənc türk mediasının gündəmindədir



**Özünü müğənni Doğuşun oğlu kimi təqdim edən Seyid adlı gənc Türkiyə mediasının gündəmindən düşmür.**

Axşam.az xəbər verir ki, ”Huriyyet”, ”CNNTürk”, ”Takvim”, ”AHaber” və bir çox media orqanları məlumat yayıblar. Bildirilib ki, 22 yaşlı Seyid Doğuşun oğlu olduğunu iddia edərək, onu məhkəməyə verib. Bunun qarşılığında Doğuş dnt analizi verib. Hazırda ifaçı analizlərin cavabını gözləyir. Bildirilib ki, Seyid hazırda Azərbaycandadır və analizin cavabını gözləyir. Onun Doğuşa olan bənzərliyi də müzakirələrə səbəb olub.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:

Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330
Tirajı: 1550 Sifariş: 1819



## Yarım milyona satıldı

"Vəfa" adlı öküz qarşıdakı yarışlara hazırlanacaq

**Türkiyənin Artvin bölgəsində keçənilki Qafqaz Buğa Güləşi çempionu, 850 kiloqramlıq 7 yaşlı "Vəfa" adlı öküz 500 min lirəyə alınıb.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, ötən il keçirilən 41-ci Kafkasör Mədəniyyət, Turizm və İncəsənət Festivalı çərçivəsində təşkil edilən korridada "Vəfa" adlı öküz çempion olub.

"Baş Buğa" adını alan 7 yaşlı 850 kiloqramlıq öküz Bursa və Artvindən olan iki iş adamı tərəfindən satın alınıb.

500 min TL-yə satılan öküz qarşıdakı korridalara hazırlanacaq.

"Vəfa"nın yeni sahibi "Buğa yetişdirmək ənənəsi bizim həyat tərzimizdir. Xoşbəxtəm ki, belə uğurlu və dəyərli buğam var. Təsərrüfatımızda çempion öküzlərimiz var idi, amma "Vəfa"nın xüsusi yeri var. Martda olduğu kimi məşqlərə başlayırıq. "Vəfa" artıq gənc deyil, təcrübəli öküzdür. Güləşdə təslim olmayacaq, kifayət qədər iddialıyıq. Gələcək festivallarda öz yerimizi tutacağıq", - deyə o, bildirib.

**Turan**

## "Amazon" 18 mindən çox işçisini ixtisar edəcək



**"Amazon" şirkəti daha əvvəl elan etdiyi 10 min əvəzinə, 18 mindən çox işçisini ixtisar edəcək.**

Bu barədə onlayn pərakəndə satış şirkətinin baş direktoru Andy Jesse bildirib.

Onun sözlərinə görə, qərar iqtisadiyyatdakı qeyri-müəyyənliklər və son iki ildə çoxlu sayda işçinin işə götürülməsi ilə əlaqədar olaraq 2023-cü il üçün planlaşdırmanın bir hissəsi kimi qəbul edilib.

Qeyd edək ki, ötən il noyabrda "Amazon" rəhbərliyi 10 min nəfəri ixtisar etməyi planlaşdırdığı bildirilmişdi. Həmçinin rəhbərlik o zaman işçilərə əlavə ixtisarların istisna olunmadığı barədə xəbərdarlıq da edib.

Son iki il ərzində koronavirus pandemiyasının yaratdığı onlayn xidmətlərə tələbatın artması səbəbindən "Amazon"un işçilərinin sayı təxminən iki dəfə artıb. Eyni zamanda, sanitar məhdudiyyətlərin aradan qaldırılması ilə şirkətin gəlirlərinin artımı da azalıb.

"The Wall Street Journal"ın məlumatına görə, ümumilikdə şirkətdə 2022-ci ilin sentyabrına qədər təxminən 1,5 milyon insan çalışırdı.

## Türk alimlər xərçəngin yeni müalicəsini tapdı



**Türkiyənin 5 universitetinin həkim və mühəndisləri xərçəng xəstələrinin müalicəsinin fərdiləşdirilməsini və kimyəvi maddələrdən istifadə etmədən hüceyrələrin sağlamlığı haqqında məlumat əldə etməyə imkan verəcək görüntüləmə texnikası hazırlayıblar. Yeni üsul tibbi ədəbiyyata daxil edilib.**

**"Medicina" xəbər verir ki, 4 il davam edən tədqiqatlar nəticəsində kimyəvi maddələrdən istifadə etmədən hüceyrələrdə xərçəng olub-olmaması barədə məlumat verəcək görüntüləmə texnikası tətbiq edilib.**

**Gələcəkdə parazitologiya, mikrobiologiya, mikologiya, qan xəstəlikləri, qida patogenləri və əczaçılıq sənayesi kimi bir çox sahələrdə istifadə olunacağı proqnozlaşdırılan yeni üsul mühüm elmi iş hesab edilir.**

## Eşli Olsen gizli ailə qurub



**Amerikalı aktrisa Eşli Olsen Yeni il ərəfəsində gizli şəkildə ailə qurub.**

**Axşam.az xəbər verir ki, aktrisa özündən üç yaş kiçik olan rəssam Luis Eyznerlə nikahmasasına əyləşib. Toy mərasimi ötən ayın 28-i Los-Ancelesdəki evlərində baş tutub. Cütlüyün özəl günündə sadəcə 50-yə yaxın insan iştirak edib.**

***Qeyd edək ki, Olsen və Eisner 2017-ci ildən görüşür və münasibətlərini reklam etməməyə çalışırdılar. Məlumdur ki, Eisner iş adamı Erik Eysner və məşhur Hollivud zərgərlik dizayneri Lisa Eysnerin oğludur.***

## Yaponiyada yeni avtomobillərin satışı son 45 ilin minimumuna enib




**2022-ci ildə Yaponiyada yeni avtomobillərin satışı yarımkeçirici çatışmazlığı və hissələrin tədarükü ilə bağlı problemlər fonunda son 45 ilin ən aşağı səviyyəsinə düşüb.**

**Azərtac Kyodo agentliyinə istinadla xəbər verir ki, bu barədə məlumat Yaponiya Avtomobil Dilerləri Assosiasiyası və Kiçik Avtomobillər Assosiasiyasının cümə axşamı günü dərc etdiyi statistikada yer alıb. Avtomobil satışının azalması koronavirus pandemiyasının təsirləri ilə izah olunur.**

**Statistikaya əsasən, ötən il Yaponiyada ümumilikdə təxminən 4,2 milyon minik avtomobili satılıb. Bu da 1977-ci ildən bəri ən aşağı göstəricidir.**

**Ölkədə yeni avtomobillərin satışı ardıcıl olaraq dörd ildir ki, azalır.**

# Qış depressiyasından qorunmaq olar

## Harvard Universitetinin professoru açıqladı



**Daha uzun gecələr və boz günlər olan payız və qış mövsümlərində bir çox insanlar pessimizm və ya depressiya hisslərinin artmasından şikayətlənirlər. İnsanlar süni işıq altında qapalı məkanlarda daha çox vaxt keçirir və təbii günəş işığından məhrum olurlar. "Şərq" xarici mediaya istinadən xəbər verir ki, mütəxəssislərin fikrincə, bu qış insanların kədərli və ya depressiyaya düşməməsinin bir neçə yolu var. Bəs qış depressiyasından qaçmaq üçün nə etmək lazımdır?**





"Nutrients" jurnalında dərc edilən yeni araşdırmaya görə, ABŞ-də hər 20 böyükdən 1-i payızın sonunda başlayan və qışa qədər davam edən depressiya növü olan mövsümi affektiv pozğunluq (SAD) narahatlığı yaşayır.

Tədqiqatçılar xalq arasında payız və ya qış depressiyası adlandırılan bu xəstəliyin ciddi qəbul edilmədiyi təqdirdə insanın həyat keyfiyyətini əhəmiyyətli dərəcədə pisləşdirə biləcəyi barədə xəbərdarlıq ediblər. Alimlər insanların bu vəziyyətdən daha az təsirlənməsi üçün pəhriz və həyat tərzi ilə bağlı müxtəlif tövsiyələr veriblər.

Aşağı karbohidratlı, ketogenik pəhriz epilepsiya və 2-ci tip diabetin nevroloji vəziyyətini bərpa edə bilər. Tədqiqat ketogenik pəhrizin depressiya, alzheimer xəstəliyi, parkinson və miqren də daxil olmaqla bir çox xəstəlik üçün müalicəvi ola biləcəyini göstərib. Ketogenik pəhriz; Yüksək yağlı, orta proteinli, çox aşağı karbohidratlı (gündə 20 qramdan az) qidalardan ibarətdir.

Harvard Universitetinin psixiatriya professoru Kris Palmer deyib:

*(Davamı səh: 7-də)*

**Turan**



## 3 ölkədə epidemiya elan edilib

Avropada qripə yoluxma halları artıb



**Avropada qrip hadisələri COVID-19 epidemiyasına yaxınlaşdı. Bəzi ölkələr rəsmi olaraq pandemiya elan edib. Ehtiyat tədbirləri artırılıb. Avropa İttifaqı ölkələrinin nümayəndələri Brüsselə toplaşıb. Sıfır COVID siyasətinə son qoyan Çinə qarşı tədbirlər müzakirə edilib. Sərnişinlərə maska taxmağı tövsiyə etmək qərara alınıb.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, Belçika rəsmi olaraq qrip epidemiyası elan edib. Milli İctimai Səhiyyə İnstitutu qrip hadisələrinin demək olar ki, koronavirus hadisələrinə bərabər olduğunu bildirib.

"Xəstəxanaya yerləşdirilən qripə yoluxma hallarının COVID-19 xəstələrinin sayından çox olması ehtimalı yüksəkdir", - məlumatda deyilir.

Üstəlik, xəstəxanaların yükü də artıb. Tibb işçiləri xəstəliyə yoluxduqca xəstələrin qəbulu çətinləşib. Bu səbəbdən bir çox xəstəxanalarda təcili olmayan müayinələr təxirə salınıb.

Daha əvvəl Almaniya və Slovakiyada rəsmi qrip epidemiyasının olduğu açıqlanmışdı.

Digər tərəfdən, sıfır COVID siyasətinə son qoyan Çin, 8 yanvarda məhdudiyyətlərini aradan qaldırır.

Avropa Birliyi ölkələrinin və birliyə daxil olmayan Şengen ölkələrinin nümayəndələri yeni tədbirləri müzakirə etmək üçün Brüsseldə bir araya gəlib.

Çindən gələn sərnişinlərə maska taxmağı tövsiyə etmək qərara alınıb. Bununla belə, ölkələr sərnişinlərdən mənfi koronavirus testinin aparılmasını məcbur etməkdə birləşə bilməyib. Bu baxımdan ölkələrin fərdi addımlar atmaq azadlığı var. Əvvəllər İtaliya, İspaniya, Fransa Çindən gələn sərnişinlərdən koronavirus testinin mənfi olmasını tələb edirdi.

ABŞ, Hindistan, İngiltərə və bir çox başqa ölkələr oxşar qərarlar vermişdilər.

Ümumdünya Səhiyyə Təşkilatı Çində hələlik yeni variantların aşkar edilmədiyini də açıqlayıb.

Ekspertlər bunun məlumat çatışmazlığı ilə bağlı ola biləcəyindən narahatdırlar.

**Turan**

## İldə 1,5 milyon dollar qazanır

Dünyanın ən varlı heyvanları məlum olub





**"All About Cats" internet səhifəsi 2022-ci ildə ən varlı ev heyvanlarının siyahısını təqdim edib.**

"NTV,com.tr" dünyanın ən varlı, məşhur insanlarını heyrətə gətirəcək ev heyvanlarının sahib olduqları varidatı açıqlayıb. Belə məlum olur ki, varlanmağı bacaran təkcə insanlar deyil, həm də "ağıllı" heyvanlardır. Əlbəttə onlar məhz sahibləri məşhur olduğu üçün tanınıb və varlı heyvanlar hesab edilmələri də sahiblərinin onlara xərclədiyi milyonlara görədir. Məşhurların bəslədiyi heyvanlar həm də müxtəlif dərgilərdə nəşr edilən fotolarına görə külli miqdarda pul qazanırlar. Yaponiyanın ən məşhur iti Maru, sosial mediada fenomenə çevrilib. Marunun qazancı 1,5 milyon dollardır. Başqa bir köpək - Tucker yutub kanalında 5 milyon abunəçiyə malikdir və o da ildə 1,5 milyon dollar qazanır. "Doug the Pug" adlı köpəyin də sosial mediada böyük izləyici kütləsi formalaşıb. Pontiac adlı köpək isə 1980-ci illərdə populyar olan "Qızıl qızlar" serialından tanışdır. Bir müddət əvvəl həyatını itirən köpəyin qazancı 5 milyon dollar olub. Dünyanın məşhur modelyerlərindən biri, Karl Lagerfeldin iti də 13 milyon dollar qazancla ən varlı ev heyvanları arasında yer alır. Jiffpom adlı it də əyninə geyindirilən kostyumlar hesabına məşhurlaşıb. Qazancı 25 milyon dollardır. ABŞ efir məkanında tanınan aparıcı Oprah Vinfreynin itləri - Sadie, Sunny, Lauren, Layla və Luke dünyanın ən zəngin köpəkləri sırasındadır. Məşhur müğənni Taylor Sviftin "Olivia Benson" adlı pişiyi 97 milyon dollarla üçüncü sırada yer alır. Məşhur pişik musiqili videolarda çəkilir, reklam kampanyalarından təkliflər alır. İnstagramın ən populyar pişiyi isə Nala adlı pişikdir. Bu pişik öz adını daşıyan pişik yeminin reklamına görə 100 milyon dollar qazanca sahibdir. "Gunther Corporation" adlı şirkətin sahib olduğu və 500 milyon dollar qazanc gətirən "Gunther VI" adlı it isə ev heyvanları arasında liderdir.

**Məlahət**

## Ən çox satılan avtomobil 41 ildir dəyişməz qalır




**"Ford F-Series" avtomobil ailəsi 2022-ci ildə ABŞ-da ən çox satılan pikap adını qoruyub saxlayıb.**

Oxu.az xəbər verir ki, avtomobil istehsalçısının mətbuat xidməti xəbər verir ki, bu avtomobil modeli 46 ildir ki, eyni titula sahibdir.

Bundan əlavə, 41 ildir ki, F-Series ABŞ-da ən çox satılan avtomobildir. Məlumata görə, 2022-ci ildə şirkət bu pikaplardan 640 min ədəd satıb. Amerikalılar hər 49 saniyədə bir Ford pikapı alıblar.

*Qeyd edək ki, 2023-cü ildə sözügedən modelin satışa çıxarılmasından 75 il ötür.*